RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 152 (8468) CÜMƏ AXŞAMI, 6 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV qətiyyəti

**Tarixdə Ermənistan adlı dövlət olmayıb!**

**Onu XIX əsrdə bölgədə iqtisadi-siyasi-hərbi marağı olan güclər, fövqəldövlətlər Azərbaycan torpaqları hesabına yaradıblar!**

**Azərbaycan Prezidenti İlham Əliyev Münxen Beynəlxalq Konfransında Paşinyana tarix dərsi keçərkən bunu faktlarla sübuta yetirdi!**

**Tarixin bütün dönümlü məqamlarında sonradan yaradılan erməni dövlətini Azərbaycan torpaqları hesabına daim genişləndirməyə çalışıblar: bir tərəfdən azərbaycanlıları dədə-baba torpaqlarında soyqırımlarına uğradıb deportasiya etməklə, digər tərəfdən Azərbaycandan yeni ərazilər qoparmaqla.**

**Sonuncu - böyük ərazi işğalı isə qırmızı imperiya parçalananda, SSRİ-nin iflası zamanı baş verdi.**

## Prezidentin inamlı addımları sayəsində Qarabağ uğrunda müharibədə mühüm keyfiyyət dəyişiklikləri baş verdi

Bir dəfəyə Dağlıq Qarabağın və ona bitişik 7 rayonun - belə böyük ərazinin itirilməsinin də iki mühüm səbəbi oldu:

*Birinci,* xalq həqiqi rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən ayrı düşmüşdü, sovetlər birliyinin parçalanması dövründə Azərbaycana başçılıq edən maymaq, qətiyyətsiz, səriştəsiz dövlət başçıları baş verən proseslərin mahiyyətini zamanında dərk edə, ölkəni gözləyən bəlaları sovuşdura, torpaqların müdafiəsini təşkil edə bilmədilər!

*İkinci* səbəb isə Azərbaycan Xalq Cəbhəsinin pozuculuq fəaliyyəti, xalqın maraqlarını özlərinin vəzifə hərisliyinə qurban verməsi, bütövlükdə milli maraqlara xəyanət etmələri oldu. "Bəylər" Qarabağ uğrunda döyüşlərin getdiyi bir vaxtda Gəncədə "ikinci cəbhə" açmaqla vətəndaş müharibəsini alovlandırdılar, əsl cəbhədən texnikanı və canlı qüvvənin bir hissəsini Bakıya, hakimiyyətin zəbt edilməsi prosesində iştiraka cəlb etməklə torpaqların müdafiəsini pozdular.

Nə ordu yaratdılar, nə torpaqları qorudular, nə də düzgün daxili və xarici siyasət yeridə bildilər...

### İlham Əliyevin düşmənin başına endirdiyi növbəti zərbə

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyevin görəcəyi işlər isə hədsiz dərəcədə çox idi: ölkədə baş alıb gedən xaos və anarxiyanın qarşısını almaq, qanunsuz silahlı dəstələri ləğv edərək əhalidəki külli miqdarda silah-sursatı toplamaq, pozulmuş iqtisadiyyatı bərpa edib dirçəltmək, ordu quruculuğu ilə məşğul olmaq, Azərbaycanın milli maraqlarını təmin edən neft müqavilələri imzalamaq, dünyaya inteqrasiya etmək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətləri beynəlxalq qurum və təşkilatlara, dünyaya çatdırmaq və s.

Bütün bunları həyata keçirmək üçün atəşkəs yaradılmalı, ölkədə möhkəm və davamlı sabitlik təmin edilməli idi.

**Ulu Öndər Heydər Əliyevin müdrikliyi və zəkası sayəsində bu vəzifələr qısa dövrdə uğurla icra olundu.**

Bundan əvvəl isə ATƏT-in Minsk qrupu münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün fəaliyyətə başlamışdı...

**Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev tarixinin ən qüdrətli Azərbaycanını yaratdı: onu Cənubi Qafqazın ən güclü dövlətinə və söz sahibinə çevirdi, yeni texnologiyalara əsaslanan silahlarla təmin edilmiş modern ordu qurdu, beynəlxalq qurum və təşkilatlarda ardıcıl və səmərəli işlər aparıldı, gənc Azərbaycan öz rəhbəri hesabına nüfuz sahibinə çevrildi.**

*Lakin ATƏT-in səmərəsiz və dişsiz fəaliyyəti, Ermənistanın şıltaq və qeyri-konstruktiv mövqeyi münaqişənin sülh yolu ilə həllinə imkan vermədi.*

**Sülh olmayan yerdə isə müharibə qaçılmazdır!**

Atəşkəs dövrünün ilk böyük toqquşması 2016-cı ilin aprelində baş verdi.

Azərbaycana qarşı növbəti təxribat əməlini həyata keçirən Ermənistana əks-həmlə ilə cavab verən Azərbaycan Ordusu düşmənə canlı qüvvə və texnika sarıdan ciddi itkilər yaşatdı, mühüm strateji nöqtə sayılan Lələtəpə yüksəkliyini götürməklə iki min hektardan çox əraziyə nəzarəti ələ keçirdi!

**Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dörd günlük aprel müharibəsində qazanılan uğurlar sayəsində Azərbaycan təşəbbüsü öz əlinə aldı, Cocuq Mərcanlını məskunlaşdırmaqla ilk dəfə olaraq məcburi köçkünlər boşaldılan əraziyə qaytarıldı və beləliklə, böyük qayıdışın əsası qoyuldu!**

*Düşmən qisas almaq üçün Naxçıvan cəbhəsində fəallaşdı.*

*Burada da Günnüt əməliyyatı ilə burnu ovuldu!*

*Belə ki, on bir min hektardan çox ərazi geri qaytarılaraq Gorus-Laçın-Xankəndi yolu da nəzarət altına alındı.*

**İlham Əliyevin baş sərkərdəliyi ilə həyata keçirilən uğurlu əməliyyatlar Ermənistanda güclü əks-səda və çaxnaşma yaratdı!**

*Ardı 3-cü səh.*

## Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 2,65 milyon (iki milyon altı yüz əlli min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2020-ci il*

## Livan Respublikasının Prezidenti zati-aliləri cənab Mişel Auna

Hörmətli cənab Prezident!

Beyrut şəhərində baş vermiş dəhşətli partlayış nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbər məni olduqca kədərləndirdi.

Bu çətin anda Azərbaycan xalqının Livan xalqı ilə həmrəy olduğunu bildirirəm. Azərbaycan Respublikası faciənin törətdiyi fəsadların aradan qaldırılması məqsədilə dost Livan Respublikasına maliyyə yardımı göstərəcəkdir.

Sizə, həlak olanların ailələrinə və Livan xalqına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2020-ci il*

## Milli Məclisin növbədənkənar sessiyasının ilk plenar iclası keçirilib

Avqustun 5-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası parlamentin Sədri Sahibə Qafarova açıb.

Sonra Azərbaycanın Dövlət himni səsləndirilib.

Daha sonra Sədr iyulun 12-dən etibarən Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdə şəhid olan əsgər və zabitlərimizin ruhunun bir dəqiqəlik sükutla yad edilməsini təklif edib. Deputatlar Vətən uğrunda canlarından keçən 12 igid şəhidimizin ruhunu ehtiramla yad ediblər.

Sədr Sahibə Qafarova dünən vəfat edən deputat, Milli Məclisin Hesablayıcı komissiyasının sədri Fəttah Heydərovun həyat yoluna qısa nəzər salıb. Onun tanınmış ictimai-siyasi və dövlət xadimi, Ağsaqqallar Şurasının sədri kimi fəaliyyətindən, dövlət siyasətinin dəstəklənməsi və təbliği sahəsində gördüyü işlərdən söz açıb.

Sədrin çıxışından sonra Fəttah Heydərovun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

*Ardı 2-ci səh.*



## Abad kənd yolundan bəlli olar

### Bölgələrimizin sosial-iqtisadi inkişafına xidmət edən yeni yollar şəbəkəsi genişləndirilir

"Abad kənd yolundan bəlli olar" deyiblər. Bu gün ölkəmizdə təkcə şəhər və rayon mərkəzlərinin deyil, az qala bütün kəndlərin yolları müasir və rahatdır. Dağ kəndlərinə üz tutan maşınların yoxuşa, daşa-kəsəyə dirəndiyi, yolçuların isə mənzil başına çətinliklə çatdığı vaxtlar artıq xatirəyə çevrilib. Ən ucqar yaşayış məntəqələrinə də yeni yollar çəkilib, yaxud köhnə, bərbad yollar əsaslı təmir edilib.

2004-cü ildən, yəni regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının qəbul edildiyi vaxtdan bəri ölkəmizdə hər il 1000 kilometrdən çox yol çəkilib və ya müasir üslubda bərpa olunub. Bu yollar iqtisadiyyatın şaxələndirilməsinə, bölgələrin sürətli inkişafına, insanların rahatlığına və sosial rifahının yüksəldilməsinə xidmət edir. Prezident İlham Əliyevin dediyi kimi: "Yol həm mədəniyyətdir, həm rahatlıqdır, həm müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir".

Bu ilin əvvəlindən, o cümlədən keçən ay Azərbaycanda bir sıra yeni yollar istifadəyə verilib. Dövlət başçısının həmin yolların əksəriyyətinin açılışında iştirak etməsi onların əhəmiyyətinə bir daha diqqət çəkir. Elə ötən ayın sonunda Prezidentin bir neçə bölgəyə səfəri zamanı açılışında iştirak etdiyi yolların da həmin yaşayış məntəqələrinin əhalisinin sosial problemlərinin həllinə böyük köməyi olacaq.

*Ardı 7-ci səh.*

## Ermənistan yeni sosial-iqtisadi böhran məngənəsindədir

Ciddi tənəzzül yaşamaqda davam edən Ermənistanı cari ilin sonrakı dövrü ərzində daha böyük problemlər gözləməkdədir. Bunu ermənilər özləri də təsdiq edir və bildirirlər ki, inkişaf üçün heç bir bazis yaradılmadığından ölkə koronavirus pandemiyası fonunda yenə çoxsaylı problemlərlə üzləşməkdədir. Yaşanan problemlər isə ən müxtəlif sahələri, o cümlədən sosial-iqtisadi həyatı əhatə edir.

Təbii ki, bu vəziyyət insanları ölkə barəsində daha pessimist düşünməyə vadar edir. Qeyd olunur ki, apatiya, çıxılmaz vəziyyətə düşməyin yaratdığı pis duyğular, ölkənin perspektivinə inanmamaq artıq dayanıqlı şəkil alır. Bu da insanların davranışına və əhvali-ruhiyyəsinə təsir edir.

"İravnyuk" qəzeti yazır ki, əhalinin demək olar, yarısı əlinə düşən ilk fürsətdəcə ölkəni tərk etməyə hazırdır: "Əhalinin 40 faizdən çoxu ilk imkan yaranan kimi ölkəni birdəfəlik tərk etmək haqda düşünür. Harasa köçüb getməyə can atan adam qaçmaq istədiyi ölkədə, şəhərdə heç vaxt hansısa daşınmaz əmlak almır. Heç kim bu ölkədə yeni şirkət yaratmaq, biznes qurmaq istəyində deyil. Ermənistan sürətlə dağılır. Həm intelektual, həm də mənəvi baxımdan ölkə deqradasiyaya uğrayıb.

*Ardı 7-ci səh.*



## Effektiv tədbirlər yumşaldılmalara zəmin yaratdı

### Azərbaycan dövləti insanların sağalması və ağır vəziyyətdən az itkilərlə çıxmaq üçün bütün imkanlarını səfərbər edib

Azərbaycan koronavirusun Uhandan alovlanıb dünyaya yayılmağa başladığı ilk zamandan etibarən operativ formada ona qarşı mübarizə aparır. Dövlətimiz epidemioloji vəziyyəti nəzarətdə saxlamaq üçün demək olar ki, bütün qüvvələrini səfərbər edib.

Səhiyyə sisteminin dərhal koronavirusla mübarizə hazırlığına gətirilməsi, burada yaradılan möhkəm maddi-texniki baza, modul tipli xəstəxanaların inşası, müasir laboratoriyaların quraşdırılması pandemiyanı nəzarətdə saxlamağa imkan verib. Hazırda ölkəmizin 46 xəstəxanasında koronavirus xəstələri müalicə alır. Bu xəstəxanaların 41-i son 16 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib. Onlar müasir avadanlıqlarla təchiz olunub. Buna görədir ki, 28 minə yaxın virusa yoluxmuş vətəndaşımız müalicə olunaraq sağaldılıb, koronavirusdan həyatını itirənlərin sayı minimum həddə olub.

*Ardı 6-cı səh.*

# Baş Nazir Əli Əsədov Livan Respublikasına maliyyə yardımının göstərilməsi barədə sərəncam imzalayıb

Baş Nazir Əli Əsədov Livan Respublikasına maliyyə yardımının göstərilməsi barədə sərəncam imzalayıb.

AZƏRTAC-ın məlumatına görə, sərəncama əsasən, baş vermiş faciənin nəticələrinin aradan qaldırılması üçün Livan Respublikasının humanitar yardıma ehtiyacını nəzərə alaraq, həmin ölkəyə maliyyə yardımının göstərilməsi məqsədilə Azərbaycan Respublikasının 2020-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə 1000000 (bir milyon) ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılacaq.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ayrılan bu vəsaitin müəyyən olunmuş qaydada ödənilməsini təmin etməlidir.

Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

# İdeoloji işin təşkilinə cavabdeh zabitlərin iştirakı ilə işçi qrupun görüşü olub

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son çıxışlarında ideoloji işin gücləndirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrasının təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin görüşü olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə müvafiq sahə üzrə görülən işlərdən danışılıb, həyata keçirilən tədbirlər təhlil olunub və ideoloji işlə bağlı planlar nəzərdən keçirilib.

Sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin Təhlil və proqnozlaşdırma sektorunun müdiri Tahir Kərimovun iştirakı ilə Azərbaycan Ordusunda ideoloji işin təşkili və həyata keçirilməsinə cavabdeh zabitlər də cəlb edilməklə müvafiq mövzu ilə bağlı işçi qrupun görüşü təşkil olunub.

Tədbirdə Azərbaycan Ordusunda ideoloji işin təşkili və həyata keçirilməsi ilə bağlı müvafiq sahəyə cavabdeh zabitlərin ictimai-siyasi hazırlıq, mənəvi-psixoloji təminat, ictimaiyyətlə əlaqələr, eləcə də digər istiqamətlərə aid hesabat xarakterli məruzələri dinlənilib, prezentasiyalar təqdim olunub, görülən işlər və bu sahədə aparılan işin səmərəliliyinin artırılması üçün nəzərdə tutulan addımlar barədə məlumat verilib.

Toplantıda çıxış edən Tahir Kərimov Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda həyata keçirilən islahatlar nəticəsində hərbi hissələrin döyüş qabiliyyətinin artdığını, şəxsi heyətin döyüş əzminin, vətənpərvərlik ruhunun və mənəvi-psixoloji hazırlığının daim yüksəldiyini bildirib.

İdeoloji işin əhəmiyyətindən danışan T.Kərimov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan Ordusunun formalaşmasında tarixi fəaliyyətinin, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzda həyata keçirilən islahatların, hərbi xidmətin nüfuzunun yüksəldilməsi istiqamətində görülən işlərin təbliğinin, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinin, gənclərin milli dəyərlərə, tarixi ənənələrə bağlılıq ruhunda, Vətənə məhəbbət və torpaqlarımızın işğaldan azad etməyə daim hazır olmaq hissləri ilə böyüməsinin ideoloji işin əsas istiqamətlərindən olduğunu bir daha diqqətə çatdırıb.

Tədbirdə Ali Baş Komandan İlham Əliyevin son çıxışlarında ideoloji işin gücləndirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək məqsədilə hərbi hissələrdə həyata keçiriləcək ideoloji işin istiqamətləri və perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb, yeni forma və metodlarla bağlı təkliflər müzakirə olunub.

Sonda kreativ ideyalardan, müasir texnologiyalardan, fleşmoblardan, sosial şəbəkələrin imkanlarından daha çevik istifadə etməklə ideoloji işlə bağlı qarşıya qoyulan tapşırıqların icrasına daha təsirli, daha keyfiyyətli nail olmanın yolları haqqında da müzakirələr aparılıb.

Müzakirələr zamanı Müdafiə Nazirliyində ideoloji işlə bağlı görülən işlər və həyata keçirilən tədbirlər müsbət qiymətləndirilib.

# "Aqrar İnkişaf Könüllüləri" Təşkilatının I Ümumrespublika veb-forumu başlayıb

"Aqrar İnkişaf Könüllüləri" Təşkilatının I Ümumrespublika veb-forumuna start verilib. AZƏRTAC xəbər verir ki, onlayn formatda keçirilən forumun əsas məqsədi ölkəmizin hərtərəfli və davamlı inkişafı istiqamətində könüllülərin fəaliyyətini, xüsusi karantin rejimi müddətində koronavirus infeksiyasının geniş yayılmasına qarşı həyata keçirilən tədbirlərdə fəal iştirakını müzakirə etmək, gənclərin aqrar sahəyə marağını daha da artırmaq, onların fərdi inkişafı və vaxtlarının səmərəli təşkilinə dəstək olmaqdır.



Forumun açılış mərasimində çıxış edən Kənd Təsərrüfatı naziri İnam Kərimov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə aqrar sahənin inkişafı yeni mərhələyə qədəm qoyub. Nazir qeyd edib ki, dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq aqrar sahənin inkişafı istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Könüllülük hərəkatının inkişafına dövlət dəstəyinin gənclərin bu sahəyə marağını daha da artırdığını deyən nazir İnam Kərimov ölkədə müxtəlif sahələr üzrə könüllülük təşkilatlarının təsis olunmasını, könüllülük təşkilatlarının fəaliyyətlərinin birgə koordinasiya edilməsini müsbət hal adlandırıb.

Nazir bildirib ki, "Aqrar İnkişaf Könüllüləri" Təşkilatı müxtəlif bölgələrdə məktəblilər arasında maarifləndirmə işləri aparır, gənclər arasında aqrar təhsilə marağı artırmağa çalışır: "Son iki ildə "Aqrar İnkişaf Könüllüləri" Təşkilatı 40-dək layihə həyata keçirib. Bu layihələr gənclərin kənd təsərrüfatının müxtəlif sahələrinə marağını artırır, aqrar sektorun dinamik inkişafını təmin edəcək kadr potensialının formalaşmasına təsir göstərir".

Nazir İnam Kərimov çıxışının sonunda forumun işinə uğurlar arzulayıb.

Daha sonra forum panel müzakirələrlə davam etdirilib. Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov "Aqrar təhsilin əhəmiyyəti", FAO-Azərbaycan tərəfdaşlıq proqramının rəhbəri Namiq Məmmədov "Ərzaq təhlükəsizliyi", Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə "Aqrar sahədə məlumat bazası" mövzuları üzrə məruzə ilə çıxış ediblər.

Qeyd edək ki, "Aqrar İnkişaf Könüllüləri" Təşkilatının I Ümumrespublika veb-forumu üç gün davam edəcək. Növbəti günlərdə forumda Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev "Aqrar sahədə maliyyə mexanizmləri", Aqrar Elm və İnnovasiya Mərkəzinin direktor müavini Əkbər Abbasov "Aqrar innovasiyalar", Kənd Təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Birliyinin sədri Fuad Məmmədov "Aqrar sahədə həmkarlar təşkilatının fəaliyyəti", Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbərinin müavini Elvin Paşayev "Aqrar sahədə insan resurslarının idarə edilməsi", Aqrar Tədqiqatlar Mərkəzinin Tədqiqatlar departamentinin müdir müavini Pərviz Əliyev "Aqrar iqtisadiyyat", Şamaxı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Etibar Muradlı isə "Gənc menecerlərin aqrar sahəyə cəlbi" mövzusunda çıxış edəcəklər.

# Haaqada Xocalı abidəsi daha münasib yerə köçürülüb

Niderland Krallığının Haaqa şəhərinin "Yeni İkendinen" məzarlığında Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinə ucaldılmış abidənin yeri dəyişdirilib və ətrafı abadlaşdırılıb.



Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Qeyd edək ki, bu abidə 2007-ci ildə Holland-Azərbaycan Türk Kültür Dərnəyinin təşəbbüsü, azərbaycanlı və türk toplumunun maliyyə dəstəyi ilə ucaldılıb. Haaqada yaşayan soydaşlarımız hər il fevralın 26-da bu abidənin önünə toplaşırlar. Onlar ermənilər tərəfindən soyqırımına məruz qalmış Xocalı qurbanlarının xatirəsini yad edir, Xocalı həqiqətlərini yerli və dünya ictimaiyyətinin diqqətinə çatdırırlar.

Abidənin ucaldılmasının təşəbbüskarı olan Holland-Azərbaycan Türk Kültür Dərnəyinin sədri İlhan Aşkın bildirib ki, çoxsaylı ziyarətçilərin eyni anda bu məkanda toplaşmasının qeyri-mümkün olduğunu nəzərə alan Holland-Azərbaycan Türk Kültür Dərnəyi abidənin bu məzarlıqda daha münasib yerə köçürülməsinə dair Haaqa şəhər bələdiyyəsi ilə danışıqlar aparıb. Razılıq əldə olunduqdan sonra abidə daha geniş əraziyə, insanların kütləvi hərəkət etdiyi yerə köçürülüb və ətrafı abadlaşdırılıb.

Abidənin yaxınlığındakı lövhənin üzərində Azərbaycan və Niderland dillərində Xocalı soyqırımı barədə qısa məlumat yerləşdirilib. İndi burada daha çox ziyarətçinin toplanması və anım tədbirlərinin daha yaxşı keçirilməsi üçün şərait yaradılıb.

"Haaqa şəhəri Avropanın ən böyük siyasi mərkəzlərindən biridir və burada belə bir abidənin olması Xocalı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Holland-Azərbaycan Türk Kültür Dərnəyi olaraq bu işin ərsəyə gəlməsində xidmətləri olan azərbaycanlı və türk icmalarına təşəkkür edirik", - deyə dərnəyin sədri İlhan Aşkın bildirib.

# Milli Məclisin növbədənkənar sessiyasının ilk plenar iclası keçirilib

*Əvvəli 1-ci səh.*



Gündəliyin təsdiqindən sonra məsələlərin müzakirəsinə başlanılıb.

Sahibə Qafarova bildirib ki, iclasın gündəliyinə daxil edilən ilk 3 məsələ 2020-ci il dövlət büdcəsinə və büdcə sisteminə daxil edilən sənədlərdəki dəyişikliklərlə bağlıdır və ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub. Sədr vurğulayıb ki, koronavirus pandemiyasının ölkə iqtisadiyyatına təsirləri, dünya bazarında neftin qiymətinin aşağı düşməsi dövlət büdcəsinə yenidən baxılmasını zəruri edib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklər edilməsi barədə" sənədi birinci oxunuşda təqdim edib. Komitə sədri qeyd edib ki, yeni növ koronavirus infeksiyasının (COVID-19) dünyada sürətlə yayılması qlobal iqtisadiyyatda neqativ meyillərin artmasına, dünya enerji və səhm bazarlarında kəskin dalğalanmalara səbəb olub. İstər dünyada, istərsə də ölkəmizdə iqtisadi şərtlər kifayət qədər dəyişib. Cari ilin mart ayından başlayaraq COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi və sosial təcrid tədbirləri ölkədə işgüzar fəallığın və artım sürətinin zəifləməsinə səbəb olub, iqtisadiyyatın əksər sahələrinin inkişafına mənfi təsir göstərib. Ölkədə iqtisadi aktivliyin zəifləməsi nəticəsində qeyri-neft gəlirlərinin azalması və digər maliyyələşmə mənbələrinin daralması dövlət büdcəsinin icrasında ahəngdarlığın, gəlirlər və xərclər arasında tarazlığın pozulması təhlükəsini yaradıb. Pandemiyanın diktə etdiyi keyfiyyətcə yeni sosial və iqtisadi davranış mühitinin xüsusiyyətləri, səhiyyə sahəsinin artan ehtiyacları, əhalinin həssas sosial qruplarına, dövlət şirkətlərinə, sahibkarlıq subyektlərinə, kiçik və orta biznesə dövlət dəstəyinin göstərilməsinin davam etdirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması və digər dövlət ehtiyaclarının təmin edilməsi dövlət büdcəsinin xərclərinin artırılması ilə bağlı yeni çağırışları formalaşdırır. Komitə sədri bildirib ki, sadalanan səbəblərə görə 2020-ci il dövlət büdcəsinə dəyişiklik edilməsi, dürüstləşmələrə gedilməsinə ehtiyac yaranıb. Yeni çağırışlar kontekstində dövlət büdcəsinin xərcləri üzrə yeni tələbatlar ortaya çıxıb. Gəlir və xərclər arasında tarazlığı təmin etmək məqsədilə büdcə qaydasının 2022-ci il yanvarın 1-dək dayandırılması qərara alınıb.

Sonra iclasda iştirak edən Maliyyə naziri Samir Şərifov büdcə layihəsinə təklif edilən dəyişikliklər və azalmaların həcmi barədə geniş məlumat verib. Bildirilib ki, cari il üçün yenilənmiş makroiqtisadi proqnozlar əsas götürülməklə aparılmış hesablamalar əsasında 2020-ci il dövlət büdcəsinin dürüstləşdirilmiş gəlirləri 24124,0 milyon manat nəzərdə tutulur ki, bu da ÜDM-in 35,3 faizi həcmindədir. Pandemiyanın təsirlərinə baxmayaraq, dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Yaranan profisit 58 milyon proqnozlaşdırılırdı, amma 292 milyon manat profisit yaranıb. Büdcə xərcləri 107 milyon manat artıq icra edilib. 6 ay ərzində dövlət büdcəsinin xərcləri 11 milyard 731 milyon manat icra olunub. Xərclərin icrasında hər hansı geriləmə olmayıb. Nazir ÜDM-in azalmasının 5 faizdən az olmayacağını proqnozlaşdırdıqlarını bildirdi. Qeyd olunub ki, iqtisadiyyatın əksər sektorlarında geriləmələr müşahidə olunur. İcmal büdcənin kəsiri 8 milyard 436 milyon manat təşkil edəcək. Dövlət büdcəsindən dəstək proqramlarının həyata keçirilməsi üçün 600 milyon manat vəsait ayrılıb. Yenidən baxılma ilə təsdiq olunmuş dövlət büdcəsinin vergi və rüsumlar üzrə, habelə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları 890,5 milyon manat məbləğində azaldılır, Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti və dövlət büdcəsinin digər daxilolmaları müvafiq olaraq 850 milyon manat artırılır. 2020-ci il dövlət büdcəsinin dürüstləşdirilmiş xərcləri 27492,2 milyon manat təşkil edəcək. Daxili bazarda istiqrazların yerləşdirilməsi üçün 190 milyon manat məbləğində vəsait nəzərdə tutulur.

Nazir çıxışında bildirib ki, Prezident İlham Əliyev tərəfindən vaxtında qəbul edilmiş qərarlar iqtisadiyyatda baş verəcək mənfi halların qarşısını alıb. Yaranmış sosial-iqtisadi vəziyyətin problemlərindən biri onun qeyri-müəyyənliyidir. Bu gün dünyada heç kim deyə bilməz ki, pandemiya nə qədər davam edəcək və insanların həyat tərzinə nə kimi təsir edəcək. Hökumət bu fikirdədir ki, iqtisadiyyatda çevik maliyyə buferləri yaradılsın və yarana biləcək təhdidlərin qarşısı alınsın. Həmin düzəlişlər edilərkən ölkəmizdə artan xərclərin makroiqtisadi sabitliyə xələl gətirməməsi məsələsi də nəzərə alınıb. Dövlətimiz bu həssas dönəmdə sərəncamında olan bütün ehtiyatlardan istifadə edir. ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun əvvəlki illərdən qalma ehtiyatlarından da istifadə olunur.

Gəlirlərin azalmasına neftin qiymətinin də təsirləri açıqlandı. Büdcənin gəlirlərinin hesablanması üçün büdcədə nəzərdə tutulan 55 dollar buna səbəb olur. Azərbaycanın dövlət büdcəsində növbəti 6 ay üçün neftin bir barelinin qiyməti 35 ABŞ dollarından götürülür.

Samir Şərifov çıxışında pandemiyanın yaratdığı bu həssas dövrü Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımızın arxada qoyacağına və yenidən inamla öz inkişaf yoluna davam edəcəyinə əminliyini ifadə edib.

Sonra Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, deputatlardan Erkin Qədirli, Fazil Mustafa, Azər Badamov, Əli Məsimli, Aydın Mirzəzadə, Musa Qasımlı, Fəzail Ağamalı 2020-ci il büdcə layihəsinə dəyişikliklərlə bağlı fikirlərini açıqlayıblar.

Sənəd birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Daha sonra Tahir Mirkişili "Sosial təminat və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, təqdim olunmuş sənədə görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Sosial Müdafiə fondunun gəlirləri və xərcləri 4 milyard 785 milyon manat təklif olunur. Burada 41 milyon manat azalma müşahidə olunsa da, ilin əvvəlindən Fondun hesabında formalaşan 191 milyon manat vəsait qalığı ilə birlikdə sosial müdafiə və sosial təminat üzrə maliyyə dəstəyinin davam etdirilməsi üçün 238 milyon manat vəsaitin ayrılması gözlənilir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev sənədlə bağlı fikirlərini açıqlayaraq bildirib ki, sosial müdafiə büdcəsindəki 0,8 faizlik cüzi azalma ilin sonuna qədər vətəndaşların sosial müdafiə ödənişlərinə təsirsiz olacaq.

İclasda iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev qanun layihəsi ilə bağlı fikirlərini bildirib. Nazir dövlət tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi, vətəndaşların sosial rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən tədbirlərdən söz açıb. 2020-ci ilin birinci yarımilliyi üçün nazirliyin və fondun gəlir və xərcləri ilə bağlı göstəriciləri açıqlayıb. Nazir vurğulayıb ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "2019-2030-cu illər üçün Məşğulluq Strategiyası"nda müəyyən edilmiş hədəflərə uyğun olaraq, nazirlik tərəfindən əmək bazarının inkişafı, işsiz və işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görülüb və bu tədbirlər davam etməkdədir.

Sahil Babayev qeyd edib ki, Dövlət Sosial Müdafiə Fondunun 2020-ci ilin birinci yarımilliyi üçün xərcləri 2 milyard 395 milyon manat proqnozlaşdırılmışdır. Ötən ilin analoji dövrü ilə müqayisədə 453 milyon manat və ya 24 faiz artım olub, xərclərin 98 faizi əhaliyə ödənişlərin payına düşüb. Əhaliyə ödənişlərin məbləği 2 milyard 296 milyon manat təşkil edib. Əmək pensiyalarının maliyyələşdirilməsi üçün sərf edilən vəsait 2019-cu ilin müvafiq dövrü üzrə faktiki xərclərə nisbətən 436 milyon manat və ya 24 faiz çox olub.

Nazir sosial müdafiə sahəsində xərclərin optimallaşdırılması, effektiv idarə olunması, şəffaflığın təmin edilməsi və əsassız xərclərin qarşısının alınması nəticəsində ciddi maliyyə qənaətlərinin əldə olunduğunu diqqətə çatdıraraq deyib: "İndeksasiya göstəriciləri tətbiq edildikdə son 2 ildə pensiya xərcləri üzrə qənaətin həcmi ümumilikdə 238 milyon manatdır. 2019-cu ildə büdcəyə 320 milyon manat vəsait qaytarılmaqla yanaşı, fondun fəaliyyət tarixində ilk dəfə olaraq 197 milyon manat həcmində maliyyə ehtiyatı formalaşdırılıb".

Saxta əlillik işlərinin ləğv olunması sahəsində aparılan işləri qeyd edən nazir deyib ki, aktuar hesablamalara əsasən, müəyyən edilmişdir ki, həmin saxta işlər üzrə ödənişlərin davam etdirilməsi fondun büdcəsindən 735 milyon manat həcmində əsassız ödənişin həyata keçirilməsinə səbəb ola bilərdi.

Nazir qeyd edib ki, aparılmış bu islahatlar nəticəsində ölkəmiz minimum pensiyanın məbləğinə görə MDB ölkələri arasında alıcılıq qabiliyyəti indeksi üzrə 1-ci yerdə, orta aylıq pensiyanın məbləğinə görə isə 2-ci yerə çıxıb.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Vüqar Bayramov və Fazil Mustafanın sənədlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda səsə qoyularaq təsdiq edilib.

Fasilədən sonra "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" qanuna təklif olunan dəyişikliklər də birinci oxunuşda müzakirə edilib. Sənədlə bağlı fikirlərini bildirən Tahir Mirkişili deyib ki, fondun gəlir və xərcləri artırılıb. 2020-ci il büdcəsinin gəlir və xərclərinin 151,2 milyon manat məbləğində təsdiq edilməsi təklif olunur. Bu isə o deməkdir ki, cari ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 23 milyon manat və ya 18 faiz çoxdur. Həyata keçirilən islahatlar nəticəsində əmək müqavilələrinin sayının və əməkhaqqı fondunun artması da pandemiya şəraitində İşsizlikdən Sığorta Fondunun gəlirlərinin əvvəlki göstəricidə saxlanmasına imkan verib.

İşsizlikdən Sığorta Fondunun büdcəsinin artması işsizliyə görə sığorta ödənişlərinin əhəmiyyətli şəkildə (5 milyon və ya iki dəfə) artmasına, peşə hazırlığı və əlavə təhsilin təşkilinə (əlavə olaraq 2 milyon manat), özünüməşğulluq tədbirlərinin təşkilinə (əlavə olaraq 15 milyon manat) əlavə imkanlar yaradacaq.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev rəhbərlik etdiyi komitənin layihə ilə bağlı rəyinin məqbul olduğunu diqqətə çatdırdı. Deputat Əli Məsimli də sənədlə bağlı fikirlərini bildirib.

Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra Musa Quliyev "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədi birinci oxunuşda şərh edib. Bildirilib ki, qanunun 14 maddəsinə 48 dəyişiklik təklif olunur. Dəyişikliklərdə məşğulluğun əlçatanlığının təmin edilməsi, peşə hazırlığı, ictimai işlərə cəlb olunan əhalinin daha geniş təbəqəni əhatə etməsi və digər məqamlar öz əksini tapıb. Qanunun 4-cü maddəsinə edilən düzəlişlərə əsasən, 8 istiqamət üzrə məşğul şəxslərin dairəsi və məşğul şəxslərin elektron reyestrinin yaradılması müəyyən edilib. Ötən müddət ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Məşğul şəxslərin reyestri" yaradılıb və 25 elektron informasiya sistemi üzərindən bu kateqoriyadan olan şəxslərlə bağlı məlumatlar tam elektron şəkildə aidiyyəti dövlət orqanlarının elektron məlumat bazalarından əldə olunur. Bunu nəzərə alaraq "Məşğul şəxslərin reyestrinin" formalaşdırılması ilə bağlı kağız daşıyıcıda məlumatların təqdim olunması ilə bağlı müddəalar ləğv edilir və müvafiq məlumatların aidiyyəti dövlət informasiya sistemlərindən əldə edilməsi təklif olunur.

Sənədlə bağlı Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitə sədrləri Sadiq Qurbanov, Qənirə Paşayeva, deputatlar Nigar Arpadarai, Sabir Rüstəmxanlı, Vüqar Bayramov fikir və təkliflərini bildirdilər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda təsdiqləndi.

Sonra "İşsizlikdən sığorta haqqında" qanuna edilən dəyişikliklər barədə məlumat verən Musa Quliyev deyib ki, ümumilikdə, qanunun doqquz maddəsinə 20 dəyişiklik təklif olunur. Layihə işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və işsizlikdən sığorta sisteminin əhatə dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün sığorta stajı 3 ildən 1 ilədək azaldılır.

Sığorta ödənişinin əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar olaraq ölkəmizdə müddətli əmək müqaviləsinin müddətinin bitməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün də sığorta ödənişi hüququ yaradılması təklif olunur. Təklifə əsasən, sığorta ödənişinin təyin edilməsi üçün şəxsin müddətli əmək müqaviləsi üzrə ən azı 3 il fasiləsiz iş stajı olmalı, onun əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə uyğun olaraq xitam verilməlidir. Sığorta ödənişi şəxsin işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay keçdikdən sonra ödəniləcək, bir şərtlə ki, bu müddət ərzində şəxs ona təklif edilmiş münasib işlərdən imtina edən şəxs olmasın. Sığorta ödənişi 3 ay müddətinə təyin ediləcək, minimum məbləğdə həyata keçiriləcək və təkrar sığorta ödənişinə yol verilməyəcək. Qeyd edilən mexanizmin tətbiq olunacağı təqdirdə il ərzində 35-40 minədək işsiz şəxsin sığorta ödənişinə cəlb edilməsi mümkün olacaq. Eyni zamanda layihədə işsizlikdən sığorta ödənişinin elektron təyinatı mexanizminin yaradılması təklif olunur.

Bundan başqa, müxtəlif iqtisadi faktorlardan asılı olaraq ölkədə əmək bazarında baş verən dəyişikliklərlə bağlı məşğulluq tədbirlərinin çevik maliyyələşdirilməsi üçün İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlir və xərcinin qanunla, gəlir və xərc istiqamətlərinin isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməsi təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirilib ki, məcəllənin dispozisiyasına (540-cı maddə) təklif olunan dəyişiklik "Məşğulluq haqqında" qanuna dəyişikliklə üzvi surətdə bağlıdır. Ailə, kəndli, fermer təsərrüfatlarının üzvləri barədə məlumatların elektron kənd təsərrüfatı sistemində yerləşdirilməsi, onların uçotunun aparılması, bələdiyyələr üçün əlavə informasiya sisteminin yaradılması sahəsində pozuntuların inzibati məsuliyyət yaradan halları ilə bağlıdır.

Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Bununla da Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası başa çatdı.



# İLHAM ƏLİYEV qətiyyəti

*Əvvəli 1-ci səh.*

Müharibə nəticəsində dilənçi vəziyyətinə düşən erməni xalqı korrupsioner və cinayətkar ölkə rəhbərliyinə bu biabırçı məğlubiyyəti bağışlamadı. Serj Sarkisyan hakimiyyətdən qovuldu!

Bu dəfə Soros fondunun maliyyəsi və dəstəyi ilə siyasətdən və diplomatiyadan, habelə idarəçilikdən başı çıxmayan Paşinyan familiyalı birisini meydandan ölkə rəhbərliyinə gətirdilər!

Xalqa bol-bol vədlər verən Paşinyan tezliklə bacarmadığı işə girişdiyini anladı. Hakimiyyətdə qalmaq üçün populist çıxışlara üstünlük verdi, burada da ciddi səhvlər buraxdı!

"Qarabağ Ermənistandır - nöqtə" kimi sərsəm, cəfəng yalanı deməklə, əslində xalqın gözündə xal qazanmaq istədi...

Azərbaycan Prezidenti İlham Əliyev isə beynəlxalq auditoriya qarşısında, nüfuzlu tədbirlərdə **"Qarabağ Azərbaycandır - nida işarəsi"** söyləyərək onun ağzından vurdu, dediklərini faktlarla sübuta yetirərək erməni baş nazirini rüsvay etdi!

Paşinyan ağıla gəlmədi!

Özünü göstərmək, sələflərinin səhvini düzəltmək üçün başından böyük qələt etdi: dövlət sərhədini pozaraq Tovuz istiqamətindən Azərbaycana qəfil hücuma keçdi!

*Hədəfi Azərbaycanın neft-qaz ixrac boru kəmərlərini və Böyük İpək yolunun bir hissəsi sayılan BTQ dəmir yolu xəttini nəzarətə almaq və dağıtmaq, məqsədi isə yeni ərazilər qoparıb təşəbbüsü geri qaytarmaqla özünü erməni xalqı qarşısında doğrultmaq idi!*

**İlham Əliyevin başından endirdiyi zərbələr nəticəsində niyyətlərinin heç birinə çatmadı!**

Üstəlik, canlı qüvvə və texnika sarıdan ciddi itkilər verərək acınacaqlı duruma düşdü!

Beləliklə, Qarabağ uğrunda müharibənin gedişində növbəti, daha bir dönüş yarandı!

**İlham Əliyevin düşünülmüş siyasəti, hesablanmış addımları, dəqiqliklə endirdiyi zərbələr nəticəsində müharibənin gedişində çox mühüm keyfiyyət dəyişiklikləri baş verdi!**

## Puça çıxarılan ümidlər, aciz duruma salınan baş nazir

Azərbaycanla Ermənistanın Tovuz istiqamətindəki hərbi toqquşması qəflətən baş verdi.

Əslində "qəflətən" sözü dırnaqda olmalıdır!

Çünki:

"Qəflətən" sözünü Ermənistana aid etmək olmaz!

Ermənistan bu təxribatı törətməyə əvvəlcədən gizli şəkildə hazırlaşmış, yeni hücum əməliyyatı keçirilməsi üçün məqsədyönlü şəkildə Dağlıq Qarabağı və işğal altındakı əraziləri yox, məhz dövlət sərhədini seçmişdi!

Bu niyyətində bir neçə strateji məqsədi, yaxın və uzaq hədəfləri güdmüşdü!

Azərbaycan üçün də "qəfil" yaxalanma anlayışı yoxdur!

*Əvvəla,* ordu elə bir ayıq-sayıq vəziyyətə gətirilib ki, nəinki sərhədə "gözlənilməz hücum" etmək, hətta hər hansı bir postumuza yaxınlaşmaq belə mümkün deyil!

*İkincisi,* kifayət qədər ən müasir müşahidə, aşkara çıxarma və müxtəlif təyinatlı izləmə vasitələrimiz var ki, onların "gözündən" heç nə yayına bilməz!

*Üçüncü,* kəşfiyyatımız da çox dəqiq və peşəkar çalışır!

*Ən nəhayət,* İlham Əliyevin baş sərkərdəsi olduğu ordunu artıq yanıltmaq və aldatmaq imkan xaricindədir!

Xüsusən meydandan hakimiyyətə gələn və siyasətin, diplomatiyanın ibtidai mərhələsində olan Paşinyana bu heç zaman nəsib ola bilməz!

Hətta onun "erməni bicliyi" də işə yarayası deyil!

**Hücumdan sonrakı hadisələrin inkişafına baxaq.**

● Azərbaycan budəfəki toqquşmada da hərbi gücünü və şəksiz üstünlüyünü göstərdi, düşmənə bir qarış belə torpaq verilmədi!

● Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə mütəşəkkil və düşünülmüş qaydada hücuma keçən ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi, şəhidlərin qisası dərhal alındı!

● İnformasiya müharibəsində düşməni qabaqladıq, əsl həqiqətləri dünyaya birinci və olduğu kimi çatdırdıq!

● Diasporun, habelə xaricdə yaşayan və işləyən azərbaycanlıların operativ və mütəşəkkil qaydada fəaliyyəti işğalçı Ermənistanın faşist xislətinin ifşasında xüsusi rol oynadı!

● Hücum diplomatiyasına keçid, eyni zamanda, səfirliklərin və diplomatik nümayəndəliklərin icazəli kütləvi aksiyalara verdikləri hüquqi dəstək hərəkatın effektliyini qat-qat artırdı!

● Xarici ölkələrin KİV-ində verilən informasiyalar, müsahibə və ifşaedici yazılar erməni yalanının ayaq tutub yeriməsinə imkan vermədi!

## Münaqişənin və müharibənin gedişində baş verən yeni keyfiyyət dəyişiklikləri

Ermənistanın Tovuz istiqamətindəki hücumunun qarşısının dərhal və qətiyyətlə alınması, budəfəki dörd günlük müharibənin Azərbaycanda və dünyada doğurduğu əks-səda münaqişənin gedişində mühüm keyfiyyət dəyişikliklərinin baş verdiyini də göstərir.

*Onlar hansılardır:*

● Azərbaycan Prezidentinin rəhbərliyi ilə ordu, diaspor və diplomatiya korpusu əlbir və əlaqəli fəaliyyət göstərdilər, xalq Ali Baş Komandanın atdığı bütün addımları bir daha müdafiə etdi. Bəyanatla çıxış edən ölkədəki 27 müxtəlif siyasi partiya Qarabağ məsələsində daim Prezidentin yanında olduqlarını elan etdilər.

● Ermənistanın baş naziri N.Paşinyanın istəyi baş tutmadı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistanla Azərbaycan arasında gedən müharibəyə müdaxilə etmədi. Əksinə, quruma daxil olan 6 dövlətdən 4-ü müxtəlif açıqlama və addımları ilə Azərbaycana dəstəklərini bildirdilər.

● Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı birmənalı şəkildə Azərbaycanın tərəfini tutdu!

● İndiyədək işğalçı ilə işğala məruz qalanı öz adı ilə çağırmayan ATƏT-in Minsk qrupunun üzvlərindən biri - ABŞ Azərbaycan ərazilərinin (Ukrayna, Gürcüstan və Moldova ilə birlikdə) Ermənistan tərəfindən işğal olunduğunu və dinc əhalini ərazidən çıxarmaqla hüquqlarının pozulması barədə Konqresdə araşdırmağa başlatdı!

● Ermənistanın hücumundan dərhal sonra qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan, "Qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək səylərinə dəstək veririk" fikrini səsləndirdi, habelə Türkiyənin Xarici işlər və Müdafiə nazirləri də Ermənistanın hərəkətini pisləyərək bir dövlət kimi daim Azərbaycanın yanında olduqlarını, ona hər cür kömək göstərəcəklərini söylədilər.

*Bunun ardınca isə Naxçıvan və Azərbaycan ərazilərində Türkiyə və Azərbaycanın çox geniş birgə hərbi təlimləri başladı!*

**Ən mühüm keyfiyyət dəyişikliyindən biri isə budur ki, Ermənistanın Azərbaycana qarşı təxribatları və baş verən toqquşmalar nəinki işğal ərazilərindəki təmas xətlərini aşmış, dövlət sərhədinin güc və silah tətbiqi ilə pozulmasına səbəb olmuş, üstəlik, hər iki dövlətin hüdudlarından kənara çıxaraq dünya ölkələrinə yayılmış, qlobal müstəviyə çıxmışdır!**

*Əgər 12 iyul Tovuz müharibəsinədək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə beynəlxalq səviyyədə çözülürdüsə, indi dünya ölkələrində yaşayan erməni və Azərbaycan diaspor üzvləri arasındakı lokal toqquşmalar da başlanmışdır.*

Əlbəyaxa vuruşa çevrilən bu toqquşmaların səbəbkarı və ilhamvericisi Ermənistanın baş naziri N.Paşinyandır.

Belə ki, 2016-cı ilin aprel müharibəsində Azərbaycanın qələbəsindən sonra S.Sarkisyan orduda təmizlik işləri apardı, bir sıra generalları və müəyyən strukturlara rəhbərlik edən yüksək çinli zabitləri qovdu, barələrində cinayət işi açdırdı.

Tovuz qələbəsindən sonra isə Paşinyan dünyadakı erməni diasporlarına nəzarət edən və onları əlaqələndirən qurumun işindən narazılığını bildirərək Ermənistanın diasporla iş üzrə komissarının ofisində çalışan 13 məmuru işdən çıxardı.

Hadisələrin gedişi göstərir ki, ASALA terror təşkilatını dirçəldən Paşinyan dünyadakı erməni diaspor təşkilatlarına dinc etiraz nümayişlərinə çıxan azərbaycanlıları döymək, qorxutmaq və Ermənistanı işğalçı dövlət kimi ifşa etmələrindən çəkindirmək üçün nümayişçilərə zor tətbiq etmək barədə tapşırıqlar verib.

Dünyanın müxtəlif ölkələrində dinc kütləvi aksiyalara çıxan azərbaycanlıların döyülməsi, maşınlarının əzilməsi, onlara qarşı müxtəlif formada fiziki güc tətbiq edilməsi ilə baş verən kriminal xarakterli çoxsaylı hadisələr dediklərimizi təsdiq edir.

*Bir neçə hadisə isə ilk dəfə baş verdi:*

● Dövlət başçısına daim tam dəstəyini bildirən Azərbaycan xalqı ilk dəfədir ki, ayağa qalxaraq, torpaqların müharibə yolu ilə qaytarılmasını tələb etdi!

● İlk dəfədir ki, Azərbaycan gəncliyi möhtəşəm dəstək aksiyası keçirərək döyüşmək istədiklərini söylədilər və Prezidentin çağırışı ilə bir həftə ərzində əlli mindən çox gənc hərbi səfərbərlik məntəqələrinə gedərək orduya yazılmaqla vuruşmaq istədiklərini rəsmiləşdirdilər!

● İlk dəfədir ki, dünyanın bir çox ölkələrindəki Azərbaycan diasporu əlbir və əlaqəli şəkildə çoxsaylı icazəli aksiyalar keçirərək erməni faşizmini və erməni terrorunu mütəşəkkil qaydada ifşa etdilər!

● İlk dəfədir ki, birgə səylə ermənilərin "məzlum", "zavallı millət" maskası cırıldı, onların dinc aksiya iştirakçılarına zorakılıq göstərən qəddar, işğalçı xalq olduqları sübuta yetirildi, bir çoxu barədə müxtəlif dövlətlərdə cinayət işləri açıldı!

● İlk dəfədir ki, Ermənistanın Azərbaycana qarşı təxribatı heç bir dövlət, beynəlxalq qurum tərəfindən müdafiə edilmədi. Əksinə, bir sıra beynəlxalq təşkilatlar (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı) və dövlətlər (Türkiyə, Pakistan, Ukrayna, İsrail və digərləri) ölkəmizə bir daha dəstəklərini ifadə etdilər.

● İlk dəfədir ki, Ermənistana gizlincə silah-sursat satan bizə "dost" ölkələrin səfirləri Azərbaycan XİN-ə dəvət edilərək onlardan "qeyri-dost əməllərinə" görə izahat tələb edildi!

**Artıq Azərbaycanın düşmənə hücum meydanı əsaslı şəkildə genişlənib, müttəfiqlərimizin, bizə açıq dəstək verənlərin sayı xeyli artıb. Cəbhə xətti ilə bərabər dünyanın hər yerində ermənilərlə çarpışma gedir. Sosial şəbəkələrdə, beynəlxalq KİV-də uğurlu ifşaedici kampaniyalar aparılır.**

Azərbaycanın səbrinin və mənasız sülh danışıqlarının limitinin tükəndiyi açıq şəkildə bəyan edilir!

## Ermənistana qoyulan ilk sanksiya

Tovuzla sərhəddə törədilən təxribata görə ilk dəfə Ermənistana qarşı sanksiya tətbiq edildi!

Doğrudur, bunu nə ATƏT-in Minsk Qrupu, yaxud BMT etmədi. Moskvadakı QUD-Siti meyvə-tərəvəz bazarının sahibi Qod Nisanov bir ilkə imza atdı!

Nəticə özünü dərhal göstərdi!

Satılmayan erməni əriyinin səsi Rusiyanın birinci telekanalından gəldi.

Aparıcılar erməni təəssübkeşliklərini açıq-aşkar nümayiş etdirdilər. Odur ki, bir qrup azərbaycanlı ziyalılarının qınağına tuş gəldilər.

Lakin məsələ bununla bitmədi. Rusiyanın Xarici İşlər naziri S.Lavrov işə qarışdı.

Beləliklə, sanksiya götürüldü.

**İki mühüm məqam isə həmişəlik yadda qaldı:**

*Birinci,* Ermənistana tətbiq olunan sanksiya dərhal öz effektini verir.

*ATƏT və BMT, habelə digər beynəlxalq təşkilatlar nahaq yerə gözləmə mövqeyindədirlər. Ermənistanı sanksiyalarla sülhə gətirmək daha sürətli və təsirlidir!*

*İkinci,* multikultural siyasət yeridən Azərbaycan öz ərazisində yaşayan bütün xalqlara və millətlərə eyni gözlə baxır. Onlar da özlərini əsl azərbaycanlı kimi apararaq xalqımızın bir nömrəli probleminin həllinə töhfələrini verə bilirlər.

Milliyyətcə yəhudi, həm də azərbaycanlı olan Qod Nisanov kimi!

**Ən nəhayət, əsl azərbaycanlı Azərbaycanın milli və dövləti maraqlarına xidmət edənlərdir!**

**Xəyanət və satqınlıq yolu tutaraq "5-ci kolon"a qulluq göstərənlər yox!**

## Satqınlığın və xəyanətin son həddi

**Dağlıq Qarabağ məsələsi bizim üçün milli məsələdir!**

**Dağlıq Qarabağ bizim üçün şərəf, qeyrət, namus məsələsidir!**

*Dağlıq Qarabağ məsələsi bizim üçün həm də məhək daşı rolunu oynayır.*

Bunu bütün Azərbaycan xalqı, hər bir Azərbaycan vətəndaşı birmənalı şəkildə belə qəbul edib!

**Xalqımız çox günahları bağışlayar, amma Dağlıq Qarabağla bağlı xəyanətdən qətiyyən keçməz!**

Soros fondundan, digər antiazərbaycançı şəbəkələrdən, hətta erməni əsilli milyonçuların vəsaiti ilə formalaşan müxtəlif "hüquq müdafiə təşkilatlarından" pul alaraq Azərbaycana qarşı təbliğat aparanlara, murdar söyüş kampaniyasına qoşulanlara kimlərsə loyallıq göstərə bilərlər.

Demokratiyadır, söz azadlığıdır, insan zövqüdür - deyə susarlar.

Kimlərinsə çörəyi vətənə xəyanətdən də çıxa bilər...

**Müstəqillik dövründə belələrini - həm satqınları, həm də onlara bəraət qazandıranları çox görmüşük və yaxşı tanımışıq!**

İstər ölkədə yaşayanlar, istərsə də xaricə gedərək müxtəlif adlarla sığınacaq alanlar olsun - bilirik!

Yəqin ki, belələrinin sosial şəbəkədəki boşboğazlıqlarına baxanlar da yox deyil!

*Necə deyərlər, söyüş eşitmək istəyən söyən tapar, yalan eşitmək istəyən yalançı, şərçi!*

**Vay o gündən ki, Qarabağ məsələsində erməni mövqeyində olasan!**

**Bax, bunu heç bir əsl azərbaycanlı bağışlamaz!**

**Beləsinin sifətini görüb, səsini də eşitmək istəməzlər!**

Osman Mirzəyevin qızı Sevinc indiyə qədər Azərbaycan əleyhinə çox təbliğat aparmışdı.

Müstəqil dövlətimizə qarşı xəyanət yolunu tutaraq çox şər-böhtan yağdırmışdı.

Bircə dəfə dilinə Azərbaycanda gedən müsbət proseslər, uğurlar barədə xoş söz gətirməmişdi.

*Neyləyək, çörəyini vətənini satmaqla qazanır!*

*Bu dəfə isə millətə də xəyanət etdi:*

**Tovuz müharibəsi ilə bağlı baş verənləri şərh edərkən bütün günahları Azərbaycanın üzərinə yıxdı!**

**Erməniləri müdafiə etdi, onlara haqq qazandırdı!**

**Hətta təqsirin Azərbaycan tərəfində olduğunu sübuta yetirməkdən ötrü dəridən-qabıqdan çıxdı!**

*Beləliklə, sübut etdi ki, təkcə keçmiş vətəninin yox, həm də atası Osman Mirzəyevin də nankor, naxələf övladıdır!*

**Eyni əməlləri vətənə və xalqa xəyanət etmiş, xüsusi murdarlıqları ilə seçilən Vidadi İsgəndərov, Orduxan Teymurxanov, Arif Məmmədov da sərgilədilər.**

*Hamısı bir ağızdan, xorla bildirdilər ki, bütün günah və məsuliyyət Azərbaycan tərəfindədir!*

*Daha bundan o yanası yoxdur!*

Açıq-aşkar görünürdü ki, hamısına komanda bir nöqtədən verilib!

*Pulverənləri onlara Ermənistanı müdafiə edərək Azərbaycanı təqsirkar çıxarmağı tapşırıb!*

**Təkcə Tovuz cəbhəsində yox, indiyədək düşmən gülləsindən həlak olan bütün şəhidlərimizin ruhu sizə qənim olsun!**

Ay yala hürənlər!..

**İnanmıram ki, bundan sonra özünə hörmət edən, şəhid ruhuna ehtiram göstərən hansısa azərbaycanlı belə murdarların çıxışına qulaq asa, eybəcər sifətlərini görmək istəyə!**

## İlham Əliyev hökmlü və qərarlıdır

**Paşinyanın "Tovuz əməliyyatı" Prezident İlham Əliyevin çox qısa zamanda atdığı düşünülmüş, qətiyyətli və ardıcıl addımlar sayəsində puça çıxdı. Azərbaycanın hərbi, mənəvi, diplomatik və beynəlxalq miqyaslı qələbəsinə çevrildi!**

Paşinyanın simasında Ermənistan nəinki heç nəyə nail ola bilmədi, əksinə, uduzdu, təkləndi, ifşa olundu, Rusiyanın yanında və dünya miqyasında tam nüfuzdan, olmayan hörmətdən düşdü.

Ermənistanın və dünya ermənilіyinin mənfur simasını və əsl niyyətini isə bütün dünya tam çılpaqlığı ilə görüb anladı!

*Tovuz müharibəsi bir sıra vacib məqamlara da tam aydınlıq gətirdi.*

*Onlar hansılardır:*

● Azərbaycan Prezidenti İlham Əliyev bir qarış torpağı belə düşmənə güzəştə getməyəcəyi, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına icazə verməyəcəyi fikrində qəti, ardıcıl və israrlıdır, üstəlik səbir kasası da dolub: "Biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır. Bu günə qədər bizim bütün addımlarımız uğurlu olub".

● Özünə və ordusuna güvənən Ali Baş Komandan Ermənistanı təkbətək döyüşə çağırmaqla təkcə özünə inamı ifadə etmir, həm də düşmən dövləti mənən məhv edir: "Ermənistan hakimiyyəti, hünəriniz varsa, Dağlıq Qarabağı tanıyın".

● Artıq Azərbaycan xalqı Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə inamını itirib, müharibənin qaçılmaz olduğunu qəbul edib və buna tam hazırdır. Həm də daim Ali Baş Komandanının arxasındadır!

● Ermənistanın KTMT-yə güvənməsi mənasızdır. Çünki bu müqaviləyə qoşulan dövlətlərin hamısı münaqişənin mahiyyətini bilir. Odur ki, Azərbaycanla sıx dostluq və əməkdaşlıq, hətta strateji tərəfdaşlıq əlaqələri saxlayanlar heç zaman Ermənistana görə Azərbaycana qarşı döyüşdə iştirak etməyəcəklər!

● Bir sıra dost dövlətlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətlə həllində Azərbaycana açıq dəstək verəcək, haqq işini müdafiə edəcəklər.

● Dünya separatizmi qəbul etmir, ATƏT-in Minsk qrupunun münaqişəni tezliklə sülh yolu ilə həll edəcəyinə isə daha heç kəs inanmır!

**Cənab İlham Əliyevin sözləridir: "Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik".**

*Bəli, reallıq dəyişib!*

*Qüvvələr nisbəti dəyişib!*

*Dağlıq Qarabağla bağlı dünyanın ictimai rəyi dəyişib!*

**İlham Əliyevin iradə və qətiyyəti, dediyi hər bir söz isə dəyişməzdir:** "Əgər Ermənistanın baş naziri deyirsə ki, "Dağlıq Qarabağ Ermənistandır", əgər deyirsə ki, "biz qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmaq istəyirik", deməli, o, danışıqları məhv edir. Mən 7 şərtin qarşısına bir şərt qoyuram, bir şərt - erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar! Budur mənim şərtim və məsləhət görürəm ki, onlar bu şərti qəbul etsinlər".

Ən nəhayət, Prezident İlham Əliyevin qəti qərarı belədir:

"Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istinasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır".

Bu qərarda azərbaycanlı adını daşıyan hər bir kəs, o cümlədən xalqımızın və dövlətimizin dostları daim İlham Əliyevlədir!

**Bəxtiyar SADIQOV**





# Fəttah Heydərovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq



**Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, parlamentin Hesablayıcı Komissiyasının sədri, görkəmli ictimai-siyasi xadim Fəttah Heydərov avqust ayının 4-də 83 yaşında vəfat edib. Respublika Ağsaqqallar Şurasının Məclis üzvlərinin Fəttah Heydərovun vəfatı ilə əlaqədar nekroloqunda deyilir:**

"Gənc yaşlarından taleyini xalqın taleyi ilə bağlayaraq respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edən Fəttah Heydərov Azərbaycanın həlledici tarixi məqamlarında həmişə milli və dövlət maraqlarını üstün tutaraq xalqa və Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiqlik nümayiş etdirmiş, ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycanın gələcək tərəqqisinə, iqtisadi yüksəlişinə istiqamətlənmiş uğurlu siyasətinin yanında olmuşdur. Prinsipiallığı, yüksək idarəçilik keyfiyyətləri, ictimai fəaliyyət əzmi, insanlara örnək ola biləcək siyasi mövqeyi ilə fərqlənən Fəttah Heydərov əsl Azərbaycan ağsaqqalı üçün səciyyəvi olan xüsusiyyətləri xarakterində cəmləşdirmiş, özünün zəngin həyatı və geniş diapazonlu fəaliyyəti ilə ölkəmizin inkişafına töhfələr vermişdir. Şərəfli və məhsuldar ömür yolu, mənəvi saflığı və vətəndaş böyüklüyü cəmiyyətimiz, xüsusilə gənc nəsil üçün bir nümunə məktəbi olmuşdur.

23 fevral 1938-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Çeşməbasar kəndində anadan olan Fəttah Səməd oğlu Heydərov 1959-1964-cü illərdə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində təhsil almış, 1975-ci ildə isə Bakı Ali Partiya Məktəbini bitirmişdir. 1955-ci ildə Naxçıvanda Güznüt kənd klubunun müdiri kimi əmək fəaliyyətinə başlayan Fəttah Heydərov 1958-ci ildən Çeşməbasar kənd səkkizillik məktəbində müəllim işləmişdir. Fəallığı və yüksək məsuliyyət hissi 1966-cı ildə onu Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin təlimatçısı, 1970-ci ildə isə Ordubad rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsinə ucaltmışdır. 1976-cı ildə Naxçıvan MSSR Əhaliyə Məişət Xidməti naziri kimi məsuliyyətli bir vəzifəyə irəli çəkilmişdir. 1978-ci ilin əvvəllərində mükəmməl həyat və istehsalat təcrübəsinə sahib olan yetkin bir kadr kimi Fəttah Heydərov Ordubad Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin olunmuşdur. 1981-ci ilin əvvəllərində Fəttah Heydərov fəaliyyətini Culfa Rayon Partiya Komitəsinin birinci katibi kimi davam etdirmişdir. 1983-1995-ci illərdə isə Fəttah Heydərov Naxçıvan MR Mədəniyyət naziri vəzifəsində çalışmışdır.

Bütün bunlarla yanaşı, Fəttah Heydərov 1970-1990-cı illərdə Naxçıvan şəhər və Ordubad rayon Xalq Deputatları Sovetinin deputatı kimi fəaliyyət göstərmişdir. 1990-1995-ci illərdə Naxçıvan MR Ali Sovetində təmsil olunan və Azərbaycan Respublikası I (1995-ci il), II (2000-ci il), III (2005-ci il), IV (2010-cu il), V (2015-ci il), VI (2020-ci il) çağırış Milli Məclisinin deputatı seçilən Fəttah Heydərov bu məsuliyyətli və şərəfli vəzifəni layiqincə həyata keçirmişdir.1995-2005-ci illərdə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu daimi komissiyasının üzvü, 2005-ci ildən Regional məsələlər daimi komitəsinin sədr müavini kimi çalışan Fəttah Heydərov parlamentin İntizam komissiyasının üzvü olaraq Milli Məclisdə normal iş rejiminin qorunması, daxili nizam-intizamın saxlanılması, etik davranışların təmin edilməsi istiqamətində mühüm işlər görmüş, Milli Məclisin Hesablayıcı komissiyanın sədri vəzifəsini də uğurla yerinə yetirmişdir.

Daim Azərbaycana xidmət duyğusunu hər şeydən üstün tutan, xalqımızın milli ruhunu yaşadan Fəttah Heydərov 16 fevral 2013-cü ildə Respublika Ağsaqqallar Şurasına sədr seçilmişdir. Ölkəmizin nüfuzlu ziyalılarını, ictimai, siyasi, mədəniyyət və elm xadimlərini özündə birləşdirən Azərbaycan Ağsaqqallar Şurası Fəttah Heydərovun rəhbərliyi altında ictimai-siyasi proseslərdə yaxından iştirak etmiş, xalqımızın milli-mənəvi dəyərlərini qoruyaraq, əxlaqi normaları və sağlam həyat tərzini təbliğ edərək əhali arasında vətənpərvərlik hissinin gücləndirilməsi və vətəndaş məsuliyyətinin artırılması üçün bir çox tədbirlər həyata keçirmişdir. Ağsaqqallarımız cəmiyyətimizin, xüsusilə də yeniyetmə və gənclərin Vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində və maariflənməsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər.

Fəttah Heydərov bir çox mükafatlarla, o cümlədən 1970-ci ildə "Fədakar əməyə görə" medalı, 1973-cü ildə "SSRİ Dövlət sərhədinin qorunmasında fərqlənməyə görə" medalı, 1975-ci ildə isə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakına görə Fəttah Səməd oğlu Heydərov 2008-ci ildə "Şöhrət", 2013-cü ildə "Şərəf" və 2018-ci ildə isə "İstiqlal" ordeninə layiq görülmüşdür.

Milli-mənəvi dəyərlərimizə, həmçinin dinimizə çox bağlı olan Fəttah Heydərov bir neçə dəfə həcc və ümrə ziyarətlərində olmuşdur.

Allah-təala onu Vətənin və vətəndaşın tərəqqisinə istiqamətlənmiş əməli fəaliyyət göstərmək, yaxşılıq və xeyirxahlıq etmək, elobanın dərdinə-sərinə yaramaq, bir sözlə, insanlıq nümunəsi olmaq üçün yaratmışdı. O, Azərbaycanı tükənməz məhəbbətlə sevən, xalqımızın firavan yaşaması üçün əlindən gələni edən böyük ictimai-siyasi xadim, dəyərli ağsaqqal idi. İnsanların daim kamilləşməsinə, yüksəlməsinə can atan və bütün fəaliyyətini bu istiqamətdə quran Fəttah Heydərov minlərlə gəncə ağsaqqallıq etmiş və yolgöstərən olmuşdur. Onun ibrətamiz söhbətlərini dinləyən hər kəs, həqiqətən, mənəvi cəhətdən saflaşmış və zənginləşmişdir.Təsadüfi deyil ki, Fəttah Heydərovun bu çətin, lakin şərəfli fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Lakin onun ən böyük mükafatı xalqımızın bu gözəl insana olan tükənməz sevgisi və hörməti idi. Biz əminik ki, bu sevgi heç zaman insanların ürəyindən silinməyəcək və vətənpərvər ictimai-siyasi xadimin, müdrik ağsaqqalın, əzmkar millət vəkilinin unudulmaz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Bütün Azərbaycan xalqına və mərhumun yaxınlarına Respublika Ağsaqqallar Şurasının Məclis üzvləri və çoxsaylı sıravi üzvləri adından dərin hüznlə başsağlığı verir və səbir diləyirik.

Allah rəhmət eləsin!"

***"Azərbaycan"***

# Azərbaycan-Türkiyə birgə genişmiqyaslı taktiki təlimlərinin növbəti mərhələsi icra olunub

Ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin növbəti mərhələsi icra olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin bu mərhələsində bölmələr silah və zirehli texnikanın tətbiqi ilə müxtəlif relyefli ərazilərdən keçməklə əks-hücum əməliyyatının təşkili və keçirilməsi, şərti düşmənin canlı qüvvəsi və döyüş texnikasına qabaqlayıcı zərbələrin endirilməsi və strateji cəhətdən əlverişli rayon və hədlərin azad olunması üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Bölmələr döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə yüksək peşəkarlıq nümayiş etdirərək qarşıya qoyulmuş tapşırıqları uğurla icra ediblər.

# Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yay tədris dövrü başlayıb

Cari il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yay tədris dövrü başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bütün hərbi hissələrdə keçirilən tədbirlərdə tədris dövrü üçün əsas məqsədlər və vəzifələr, eləcə də onların icra qaydaları diqqətə çatdırılıb.

Ordumuzda tədris prosesi Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə quruda, dənizdə, havada real təhdid və risklər nəzərə alınaraq keçiriləcək.

Yay tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilib, maddi-tədris bazasının vəziyyəti yoxlanılıb.

Tədris dövrünün birinci günündə bütün hərbi hissələrdə yüksək səmərəliliyi və keyfiyyəti ilə fərqlənən döyüş hazırlığı məşğələləri başlayıb.

# "TurAz Qartalı - 2020" təlimlərinə döyüş helikopterləri də cəlb edilib

Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı - 2020" birgə taktiki-uçuş təlimləri davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məşqlərin praktiki hissəsində bazalanma aerodromlarından uçuş edən helikopterlər müxtəlif epizodlar üzrə tapşırıqlarını yerinə yetirirlər.

Taktiki-uçuş məşqləri zamanı qarşıya qoyulan tapşırıqlar helikopter ekipajları tərəfindən müvəffəqiyyətlə icra olunur.

# Atəşkəs rejimi 36 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 36 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Baş Prokurorluqda ilin birinci yarısının yekunları ilə bağlı videokonfrans rejimində əməliyyat müşavirəsi keçirilib

Avqustun 5-də prokurorluq orqanları tərəfindən bu ilin birinci yarımilində "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və tabe qurumların müşavirələrində müzakirəsinin nəticələrinə həsr olunmuş videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib.





Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əməliyyat müşavirəsində məruzə ilə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, beynəlxalq müstəvidə müşahidə olunan geosiyasi və geoiqtisadi mənzərənin mürəkkəbliyinə baxmayaraq, Ümummilli Lider Heydər Əliyevin gələcək nəsillərə miras qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün tələblərinə uğurla transformasiya edilmiş zəngin dövlətçilik ənənələrinin ölkə həyatının hər bir sahəsinə sistemli şəkildə tətbiqi nəticəsində bu gün müasir Azərbaycan zamanın bütün aktuallıqları ilə ayaqlaşmaqdadır. Başlıca qayəsi əhalinin ümumi rifahına hesablanmaqla çeviklik, şəffaflıq və səmərəlilik prinsipləri üzərində bərqərar olunmuş bu ənənələr milli dövlət idarəçiliyində aparılan islahatlara adekvat yanaşmanı təmin etməklə yanaşı, tarixi təcrübə ilə günün tələblərinin vəhdətini təşkil etməkdədir.

Vurğulanıb ki, istinad edilən bu müsbət tendensiya bəşəriyyətin mübarizəsinə səfərbər olduğu COVID-19 virusunun yayıldığı 2020-ci ilin birinci yarımilində də səngiməmiş, əksinə, yüksələn xətt üzrə inkişaf edərək ölkəmizin ictimai-siyasi həyatındakı əsas istiqamətlərdə daha aydın şəkildə təcəssüm edilib. Pandemiya ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejimi günlərində vətəndaşların Konstitusiya ilə təsbit edilmiş sağlamlığın qorunması hüququ etibarlı şəkildə təmin olunub, dövlət başçısı ilə yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın öz müraciətləri və əməli tədbirləri ilə nümayiş etdirdiyi həmrəylik, diqqət və qayğı xalqımızda qürur və sağlam gələcəyə inam hissi aşılamaqla, cəmiyyətimizi ümumbəşəri hal almış bu bəla ilə mübarizədə sıx birləşdirib. Bu müddət ərzində koronavirus pandemiyası şəraitinin milli iqtisadiyyata təsiri ölçülməklə dərhal çevik dəstək proqramları həyata keçirilmiş, aztəminatlı vətəndaşlara və sahibkarlıq subyektlərinə münasibətdə dövlət dəstəyinin daha da artırılması üçün maddi yardım, vergi güzəştləri, güzəştli kreditlərin verilməsi və digər bu kimi stimullaşdırıcı alətlərdən istifadə edilib.

Müşavirədə xüsusi qeyd olunub ki, ötən dövr milli tariximizin qızıl yaddaşına əhalinin sağlamlığının etibarlı mühafizəsi kimi həssas məsələ ilə yanaşı, Konstitusiyamızın digər ümdə vəzifəsi olan dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün etibarlı şəkildə qorunması ilə də həkk olunub. Belə ki, Ermənistanın son beş ildə üçüncü dəfə təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq ölkəmizə qarşı yönəltdiyi açıq qəsdlər Ali Baş Komandanın rəhbərliyi, xalqın güclü dəstəyi, qüdrətli Milli Ordumuzun peşəkarlığı, o cümlədən ölməz şəhidlərimizin şücaəti nəticəsində dəf edilib. Təcavüzkar düşmənə qarşı həyata keçirilən kəskin əks-həmlələr Silahlı Qüvvələrimizin qələbəsi və qarşı tərəfin təslimiyyətçi bəyanatlar verərək geri çəkilməsi ilə nəticələnib.

Geniş əməliyyat müşavirəsindəki məruzəsində ölkənin ictimai-siyasi həyatında əldə edilən nailiyyətlərdə müxtəlif strateji amillərlə yanaşı, digər mühüm prioritet sahə olan cinayətkarlığa qarşı mübarizənin də önəmli payı olduğunu qeyd edən Baş prokuror Kamran Əliyev 2020-ci ilin birinci yarımilində prokurorluq orqanları tərəfindən digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərinə qarşı mübarizənin daha da gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsi, habelə "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş digər fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması istiqamətində genişmiqyaslı islahatların keçirildiyini bildirib.

Aparılan islahatlar çərçivəsində prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvatlaşdırılması, işində çevikliyin və səmərəliliyin artırılması, o cümlədən müasir dövrün tələblərinə cavab verən peşəkar dövlət təsisatı kimi yenidən formalaşdırılması məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiqlənib, qurumun strukturu qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla mahiyyətcə tamamilə yenidən formalaşdırılıb, daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılaraq struktur qurumların sayı 15-dən 18-ə çatdırılıb, habelə idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis olunub.

Yeni strukturla Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı Şəhər Prokurorluğunun İstintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılıb. Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların əsasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis edilib, eləcə də mərkəzi aparatın yeni Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılıb.

Eyni zamanda Azərbaycan Respublikasının Baş Prokurorluğunun yeni strukturuna uyğunlaşmanı təmin etmək məqsədilə Hərbi Prokurorluğun, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Bakı Şəhər Prokurorluğunun və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin də müasir çağırışlara cavab verən yeni strukturları təsdiqlənərək bəzi idarə və şöbələr ləğv edilməklə müasir tələblərə uyğun yeni struktur vahidləri yaradılıb, Respublika Hərbi prokurorunun əlavə müavini vəzifəsi təsis edilib.

Qeyd olunub ki, görülən işlərə paralel surətdə kadr korpusunun yenidən komplektləşdirilməsi istiqamətində işlərə də start verilib. Mayın 1-dən cari tarixədək struktur dəyişikliyi və təyinatlar, həmçinin sair məsələlərlə bağlı 703 əmr imzalanıb, 114 nəfər prokurorluq işçisi rəhbər vəzifələrə təyin olunub.

Dövlətimiz tərəfindən həyata keçirilən gender bərabərliyi siyasətinin uğurlu davamı kimi, prokurorluq orqanlarının kadr korpusunun 7 faizini təşkil edən qadın əməkdaşların 8 nəfəri bu qısa müddət ərzində rəhbər vəzifələrə - Baş Prokurorluğun idarə və şöbə rəisi, rayon prokuroru və rayon prokurorunun müavini vəzifələrinə təyin edilib.

Baş prokuror Kamran Əliyev əməliyyat müşavirəsindəki çıxışında prokurorluğun fəaliyyətini tənzimləyən, icrası prokurorluq işçiləri üçün məcburi olan əmr, sərəncam, göstəriş və digər aktlarla bağlı məsələlərə də toxunub. Baş prokuror Kamran Əliyev prokurorluqda aparılan mütərəqqi islahatların gedişi ilə bağlı ümumi vəziyyəti müşavirə iştirakçıları ilə tanış etdikdən sonra qurumun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad edib, hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, əhalinin hər 100 min nəfərinə düşən 132 cinayətin sayına görə ölkəmizin MDB və Avropa məkanında öncül mövqeyini saxlayaraq ən təhlükəsiz və sabit dövlətlərdən biri olduğunu qeyd edib.

Bildirilib ki, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və strukturunda müşahidə edilən müsbət göstəricilər hesabat dövründə də davam edib, 2020-ci ilin birinci yarımilində əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 13 min 310 cinayət qeydə alınıb. Bu cinayətlərin 86,5 faizi böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 13,5 faizi ağır və xüsusilə ağır növlər təşkil edib.

Cari ilin birinci yarımili ərzində Baş İdarə korrupsiya ilə mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, bu sahədə digər ölkələrin uğurlu təcrübələrinin və əldə olunmuş nailiyyətlərinin öyrənilməsi, qarşılıqlı təcrübə mübadiləsinin, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və ümumilikdə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsində respublikada böyük ictimai rezonansa səbəb olan dövlətin konstitusiya quruluşunun əsaslarının sarsıdılmasına yönələn əməllərin və digər cinayətlərin istintaqı müvəffəqiyyətlə aparılıb.

Qeyd edilib ki, idarə tərəfindən cari ilin iyulun 14-dən 15-nə keçən gecə Bakı şəhəri, Parlament prospektində, Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasında bir qrup şəxs tərəfindən ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan əməllərin təşkil edilərək törədilməsi, hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlər, hakimiyyət nümayəndələrinə zor tətbiq olunması, özgə əmlakının qəsdən məhv edilməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyən edilərək istintaqa cəlb olunması istiqamətində Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Həmçinin müşavirədə qeyd edilib ki, cari ilin iyul ayı ərzində Ermənistanın silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejimi kobud şəkildə pozularaq müharibə hüququnun əsas prinsiplərinə zidd olaraq qəsdən mülki əhalinin sıx yaşadığı ərazilər hədəfə alınıb atəşə tutulmaqla onlara qarşı müxtəlif cinayətlər törədilib və ümumilikdə mülki əhaliyə xeyli ziyan dəyib.

Bununla bağlı Baş prokuror Kamran Əliyev mülki əhaliyə məxsus əmlaka dəymiş ziyanın müəyyənləşdirilməsi üçün zəruri tədbirlərin görülməsi və gələcəkdə zərərçəkmiş şəxslərin beynəlxalq təşkilatlar qarşısında pozulmuş hüquqlarının bərpası üçün əməli kömək göstərilməsi barədə tapşırıq verib.

Bildirilib ki, hesabat dövründə tabe rayon (şəhər) prokurorluqlarının fəaliyyətində də qənaətbəxş nəticələr əldə olunub. Belə ki, 2020-ci ilin birinci yarımilində qeydə alınmış 78 qəsdən adam öldürmə cinayətindən 76 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş, əksəriyyəti xüsusilə ağır cinayətlər olan, iki və daha çox şəxsin ölümü ilə nəticələnmiş 19 hadisə isti izlərlə açılıb. Həmin cinayətlərin açılması 97,43 faiz təşkil edib. Hazırda bağlı qalmış 2 cinayət işi üzrə tam və hərtərəfli araşdırma aparılmaqla təqsirli şəxslərin müəyyənləşdirilib məsuliyyətə cəlb olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Hesabat dövründə vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılıb. Prokurorluq orqanları tərəfindən ümumilikdə 11 min 11 nəfər, o cümlədən Baş Prokurorluqda 1106 vətəndaş qəbul olunub. Onların müraciətlərinə qanunvericiliyin tələblərinə müvafiq qaydada baxılaraq həll edilib.

Müasir tələblər reallığında ilk növbədə prokurorluq orqanlarında vətəndaş məmnunluğunun təmini, daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müxtəlif sahələr üzrə müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi məqsədilə Baş Prokurorluqda yaradılmış 961 Çağrı mərkəzində hesabat dövründə 442 müraciət qeydə alınıb. Onlardan 86-sı təmin, 59-u rədd edilib, 174 müraciət müəllifinə izah verilib, 21 müraciət cinayət işi materiallarına əlavə olunub, 76-sı aidiyyəti üzrə göndərilib, 26 müraciət növbəti hesabat dövrünə qalıq qalıb.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə ağır və xüsusilə ağır cinayətlərdə ittiham olunan 6 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Eyni zamanda qeyd olunub ki, koronavirus infeksiyasının respublikamızın ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Prokurorluğu da Nazirlər Kabineti yanında Operativ Qərargahla əlaqəli şəkildə qarşıya qoyulan vəzifələrin icrasında müntəzəm surətdə iştirak edir.

Diqqətə çatdırılıb ki, hesabat dövründə xidməti fəaliyyətlərində qanun pozuntusu hallarına yol vermiş 10 prokurorluq işçisi barədə xidməti yoxlamalar aparılaraq intizam məsuliyyətinə cəlb olunub. Onlardan 3 nəfərə töhmət, 1 nəfərə şiddətli töhmət verilib, 5 nəfər vəzifədən azad edilib, 1 nəfər isə prokurorluq orqanlarından xaric olunub.

Əməliyyat müşavirəsində Baş Prokurorluğun 2020-2023-cü illər ərzində strateji inkişaf konsepsiyasının hazırlanması, Baş prokurorun qanunvericilik təşəbbüsündən geniş istifadə olunması, sosial sahədə olan problemlər araşdırılaraq Azərbaycan Prezidentinə məlumatların verilməsi, kadrların peşəkarlığının artırılması, səriştəli kadrların prokurorluqda işə cəlb olunmasına üstünlük verilməsi, prokurorluq işçiləri tərəfindən tez-tez yol verilən pozuntuların müəyyənləşdirilərək aradan qaldırılması üçün tədbirlərin görülməsi, uğurlu iş təcrübəsinin müəyyən olunması və digər istiqamətlərdə konkret tapşırıqlar verilib.

Müşavirədə Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini Heydər Məmmədov, Baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov, Zəngilan rayon prokuroru Lalə Hüseynova, Qazax rayon prokuroru Rauf Gözəlov və Tovuz rayon prokuroru Elçin Qəhrəmanov da mövzu ətrafında və aktual məsələlərə dair çıxışlar ediblər, həmçinin müşavirənin digər iştirakçıları tərəfindən faydalı müzakirələr və fikir mübadiləsi aparılıb.

Müşavirənin sonunda əminliklə bildirilib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq 2020-ci ildə də öz səlahiyyət hədləri daxilində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və insan hüquq və azadlıqlarının qorunmasında bütün zəruri tədbirlərin görülməsini təmin edəcək.

# REGİONLAR



# Yevlax koronavirus sınağından uğurla çıxır

Bütün bəşəriyyət üçün ciddi problemə çevrilmiş koronavirusla mübarizə davam etməkdədir. Dünyanın ən qüdrətli dövlətləri belə, bu bəladan qurbansız ötüşə bilmir. Çox sayda insanın ömrü yarımçıq qırılır, ölkələrin iqtisadiyyatına dərin böhranla sonuclanacağı gözlənilən ağır zərbələr vurulur.









Belə bir şəraitdə respublikamızda dövlət səviyyəsində həyata keçirilən məqsədyönlü, qabaqlayıcı təhlükəsizlik tədbirləri Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təqdir olunur, yüksək dəyərləndirilir.

Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargah koronavirusla mübarizə tədbirlərini uğurla əlaqələndirir, bu ağır sınaqdan nisbətən az itkilərlə çıxmaq üçün faydalı təşəbbüslərlə diqqət çəkir. Operativ Qərargahın qəbul etdiyi qərarların, verdiyi təlimat və göstərişlərin icrasına Yevlax rayonunda da məsuliyyətlə yanaşılır. Küçə və prospektlərdə, park və meydanlarda, gediş-gəlişin nisbətən sıx olduğu ərazilərdə vaxtaşırı dezinfeksiya işləri aparılır. Pandemiya dövrünün qaydalarına əməl edilməsinə nəzarəti gücləndirmək üçün Yevlax Şəhər İcra Hakimiyyətinin səlahiyyətli nümayəndələrindən və rayon polis şöbəsinin əməkdaşlarından ibarət mobil briqadalar davamlı reydlər keçirir, aşkar edilən nöqsanları aradan qaldırmaq məqsədilə zəruri tədbirlər görürlər.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev bizimlə söhbətində deyir:

- Bütün dünya üçün ağır sınaq olan koronavirusla mübarizə hər yerdə olduğu kimi, Yevlaxda da qayğıları artırmış, bu sınaqdan uğurla çıxmaq üçün daha sıx birləşməyimizi, bir-birimizə doğma münasibət sərgiləməyimizi, kömək göstərməyimizi zərurətə çevirmişdir. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tövsiyyələri, təlimat və göstərişləri pandemiya dövrü üçün fəaliyyətimizin əsas istiqamətlərini müəyyən edir. Prezident İlham Əliyevin koronavirusla mübarizədə "Biz birlikdə güclüyük!" çağırışı Yevlaxda da böyük əks-səda doğurmuş, rayon sakinlərində məmnunluq yaratmışdır. Bu gərgin dövrdə biz bütün səy və bacarığımızı səfərbər edərək əhalini narahat edən problemlərin həllində daha diqqətli olmağa çalışırıq.

Anar Tağıyevin söhbətindən öyrənirik ki, Operativ Qərargahın təlimatına uyğun olaraq vətəndaşların qəbulu onlayn formasında keçirilir, şikayət və müraciətlərə həssaslıqla yanaşılır. Cari ilin iyul ayına qədər 20-dən çox onlayn qəbul keçirilmiş və 200 nəfərdən çox vətəndaşın şikayət və təklifləri dinlənilmişdir. Keçirilən videoqəbullarda 60-a yaxın məsələ yerindəcə öz həllini tapmışdır. Bunlardan 6-sı suvarma suyu ilə, kəndlərdə suvarma arxlarının təmizlənməsi, 20-si kanalizasiya, 5-i qəzalı vəziyyətdə olan elektrik dirəklərinin dəyişdirilməsi, yaşayış məhəllələrində təmizlik işlərinin aparılması, ağacların budanması, 6-sı telefon və internet xətlərinin çəkilişi, 10-u işlə təminolunma, 7-si özünüməşğulluq məsələləri ilə bağlıdır. Qəbullarda iştirak edən vətəndaşların müraciətlərində ünvanlı sosial yardımın təyin edilməsi, təqaüd almaq üçün tibbi ekspert komissiyasından keçirilməsi, əlillik dərəcəsinin müəyyən edilməsi, elektrik naqillərinin və dirəklərinin yenilənməsi, özünəməşğulluq proqramında iştirak istəyi, sənədsiz evlərin sənədləşdirilməsi, yeni tikilmiş fərdi evlərə qaz və elektrik xətlərinin çəkilməsi, kəndarası yollara asfalt örtük çəkilməsi, məktəb və uşaq bağçalarının təmiri məsələləri üstünlük təşkil edir. Şəhər icra hakimiyyətinin səlahiyyətləri daxilində olan məsələlər bir qayda olaraq operativ həllini tapır. Həlli şəhər icra hakimiyyətinin imkanları xaricində olan problemlərlə bağlı isə əlaqədar hökumət qurumları qarşısında məsələ qaldırılır.

Onlayn qəbullarda edilən şikayətlərin, təklif və müraciətlərin böyük əksəriyyəti artıq öz uğurlu həllini tapmışdır. Dəmir yolu binası-4 ünvanında, Şəkitayı yaşayış massivində, 28 May küçəsində, dəmir yolu kənarında yerləşən çoxsaylı fərdi evlərdə, Nizami prospektində, 34, 36 və 51 saylı binalarda, şəhid Nəsir Mənsurov küçəsindəki 25 evlik yeni yaşayış massivində və bir çox digər ünvanlarda su, kanalizasiya, qaz problemləri və əhali üçün narahatlıq yaradan digər nöqsanlar aradan qaldırılmışdır.

Bu gün Yevlaxda həyat öz axarındadır. Ərzaq təhlükəsizliyi proqramına sanballı töhfələr vermək üçün qüvvələr kənd təsərrüfatı işlərinin uğurlu icrasına səfərbər edilmişdir. Keçən ildəkindən xeyli çox taxıl, ət, süd, yumurta, meyvə, tərəvəz istehsal olunmuşdur. Pambıq tarlalarının becərilməsi aqrotexniki qaydalar əsasında davam etdirilir. Bütün bunlarla yanaşı, abadlıq, tikinti, quruculuq işləri də diqqət mərkəzindədir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Pambıq kolları bara dolur

Hiss olunur ki, sahə bir neçə gün əvvəl suvarılıb. Pambıqçı fermer Şakir Soltanov kənarlarını çayır basmış su arxını adlayıb sahənin içinə girir. Biz də onun arxasınca gedirik. Cərgələrin arasında nəmlik var.



Pambıq kolları qurşaqdan yuxarıdır. "Maşallah olsun, yaxşı pambıq yetişdirmisiniz. Allah dərd-bəladan, sovkadan qorusun", - deyirik. Ş.Soltanov cavab verir: "Xəstəliklərə, hər cür ziyanvericilərə qarşı mübarizə tədbirlərini vaxtlı-vaxtında görürük. Bu sahəni suvarmadan qabaq dərmanlamışıq. Gördüyünüz kimi, arata düşmək ərəfəsindədir. Sabah yox, birisi gün kultivator çəkib yenidən dərman səpəcəyik ki, sovka kəpənəyi yaxın düşə bilməsin". Şakir sonra cərgələr arasında duraraq bitkiləri yana əyir, daban qozaları göstərir: - Bu vaxt üçün hər kolda 6-7 formalaşmış qozanın olması pis göstərici deyil. - Bir qədər susub əlavə edir: - Allah göydən baxır. Kim ki çalışır, onun zəhməti yerdə qalmaz. İndiyə kimi beş, bəzi yerlərdə altı dəfə kompleks becərmə aparmışıq. Sirr deyil ki, bu il hər yerdə olduğu kimi, Biləsuvar rayonunda da su qıtlığı yaşanır. Lakin biz təcrübəmizə əsaslanaraq bütün mövcud imkanlardan istifadə etməyə çalışırıq. Harda su görürüksə, onu suvarmaya yönəldirik. Bəzən kollektor-drenaj suları da köməyimizə gəlir. Hər kub, hətta hər litr sudan səmərəli istifadə etməyə çalışırıq. İtki hallarının qarşısını almaq üçün gecə növbətçiləri qoymuşuq. Sağ olsunlar, Biləsuvar Rayon Suvarma Sistemləri İdarəsinin işçiləri, gecəligündüzlü yanımızdadırlar. Su problemini aradan qaldırmaq üçün digər yollardan da istifadə etməyə çalışırıq. Aqrotexnikada belə bir şərt mövcuddur: iki kultivasiya bir suvarmanı əvəz etmək imkanına malikdir. Nə lazımdırsa, edirik. Sovet dövründə belə bir məsəl vardı: "Pambıq kolunun alçaqlığına baxma, ondan yıxılan sağalmır". Bu o demək idi ki, əgər planı, öhdəliyi yerinə yetirməsən, aqibətin yaxşı olmayacaq. Ya töhmət alacaqsan, ya da vəzifədən gedəcəksən. İndi isə başqa zamandır. Hər şey maddiyyat üzərində qurulub. Yaxşı qazanc götürmək üçün yaxşı da işləməlisən. Hər şey özündən asılıdır. Sahəyə girəndə, yəqin ki, görüb hiss etdiniz. Su ilə bitkilərə mal peyini vermişəm. Bilirəm ki, sahəyə, məhsuldarlığın artmasına yaxşı təsir edir. Bəzi məsuliyyətsiz əkinçilər var ki, bunu başa düşmürlər, müqavilə bağladığı şirkətdən aldıqları pulu lazımsız şeylərə xərcləyir, üstəlik becərməni də lazımi səviyyədə aparmırlar. Cücəni saymaq vaxtı çatanda hər şey üzə çıxır. Beləliklə, şirkətə borclu qalırlar. Gördüyünüz kimi, bütün dövrlərdə, quruluşlarda adamdan ilk növbədə məsuliyyət tələb olunur. Məsuliyyətsiz olanlar, haqq-hesabını, gəlir-çıxarını bilməyənlər isə həmişə həyatda çətinlik çəkirlər".

Söhbət zamanı müsahibim bunları da əlavə etdi: "Sağ olsun dövlətimiz, kəndli üçün yaxşı imkanlar yaradıb. Subsidiyalar verir, digər köməkliklər göstərir. Torpaq haqqından başqa, kəndli qalan bütün vergilərdən azaddır. Su təminatının yaxşılaşdırılması ilə əlaqədar Prezident bu yaxınlarda videogörüntü ilə geniş müşavirə keçirdi, əlaqədar təşkilatların, onların rəhbərlərinin qarşısında ciddi vəzifələr qoydu. Sevinirik ki, bizim rayonun ərazisindəki su kanalları, qurğuları əsaslı təmir olunacaq. Bu isə öz növbəsində kənd təsərrüfatı məhsullarının çoxalmasına, ərzaq təhlükəsizliyi proqramının yerinə yetirilməsinə, fermerlərin, bütövlükdə kənd adamlarının gün-güzəranının yaxşılaşmasına səbəb olacaq. Yeri gəlmişkən, bir mütəxəssis kimi fikrimi, arzumu bildirməyi özümə borc bilirəm. İran İslam Respublikası ilə Azərbaycan arasındakı Biləsuvar sərhəd-keçid məntəqəsinə təxminən 6-7 kilometr qalmış bizim rayonun ərazisində tutumu 12 milyon kubmetr olan Bolqarçay su anbarı var. 1965-ci ildə tikilib istifadəyə verilmiş bu anbardan 1990-cı ildən bəri istifadə olunmur. Səbəbi də su hövzəsinin hədsiz lillənməsidir. Halbuki bu anbar rayonumuz üçün hədsiz dərəcədə gərəklidir. Payız, qış, yaz aylarında İran ərazisinə yağan qarın, yağışın suyu Bolqar çayı vasitəsilə gəlib bu anbara dolur. Yaz-yay aylarında buraya yığılan su ehtiyatı ilə 5 min hektardan çox taxıl, pambıq və digər kənd təsərrüfatı bitkilərini suvarmaq olar. Özü də heç bir elektrik, yanacaq məsrəf etmədən. Aqronom, meliorasiya işlərindən başı çıxan bir adam kimi Biləsuvarda əkinlərin keyfiyyətlə və vaxtlı-vaxtında suvarılması üçün bu anbarın lildən təmizlənərək istifadəyə verilməsini təklif edirəm".

Ş.Soltanov həmişə irəliyə getməyə, yüksək nəticələr əldə etməyə çalışır. Keçən il əkdiyi 37 hektar sahənin hər hektarından 55 sentner "ağ qızıl" götürmüşdür. Çəkdiyi zəhmət isə hədər getməyib. Ölkə rəhbərinin sərəncamı ilə I dərəcəli "Əmək ordeni"nə layiq görülüb. O, işgüzar, qabaqcıl fermer olmaqla yanaşı, həm də yaxşı mütəxəssis, bacarıqlı təşkilatçıdır. "P-Aqro" MMC-nin Biləsuvardakı filialına rəhbərlik edir. Rayondakı pambıqçı fermerlərin əksəriyyəti Ş. Soltanovla işləməyə üstünlük verirlər. Müəssisə üzrə keçən il 2 min 50 hektar sahədən 7 min 271 ton pambıq götürülmüşdür. Hər hektarın məhsuldarlığı orta hesabla 35,2 sentner təşkil etmişdir. "P-Aqro" MMC-nin Biləsuvar filialı 2019-cu ilin nəticələrinə görə respublikamızda pambıq istehsalı ilə məşğul olan müəssisələr üzrə 3-cü yerdə olub.

Əsgərabad kənd sakini fermer Nurəddin Mirzəyevin dediklərindən: "Ş.Soltanov bacarıqlı mütəxəssisdir. Biz fermerlərə hər cür kömək göstərir, pambığın şumundan tutmuş yetişdirilən məhsulun son qozasına qədər yığılıb toplanmasına kimi, demək olar ki, hər gün yanımızda olur. Məhz onun köməyi, diqqət və qayğısı sayəsində əkini, becərməni, bütün aqrotexniki tədbirləri vaxtında həyata keçirə bilirik. Suyun qıt olduğu indiki vaxtlarda nə lazımdırsa, onu da edir. Mən özüm də aqronomam. Sovetlər zamanı kolxozda pambıqçılıq briqadiri işləmişəm. Pambığın nə olduğunu yaxşı bilirəm. Bir gün diqqət yetirməsən, nazını çəkməsən, elə bil ki, səndən küsür. Buna görə də pambıq əkdiyim 8 hektar sahənin becərilməsi gündəlik nəzər-diqqətimdədir. Keçən il 8 hektarın hər hektarından 42 sentner məhsul götürdüm. Allahın evi olan dünyamız abad olsun. Bu il məqsədim 50 sentnerdir. Mənə elə gəlir ki, pis məhsul yetişdirmirik, inşallah, ona da nail olarıq".

Fermerlərdən Arif Əliyev, Mehdi Ağayev, Allahverdi Şərbətov, Füzuli Təhməzov, Oqtay Aslanov və başqaları da mövcud çətinliklərə baxmayaraq, bu il daha gərgin işləyir, yüksək məhsul yetişdirmək üçün əllərindən gələni edirlər.

"P-Aqro" MMC Biləsuvar filialı üzrə cari ildə keçən ildəkindən 200 hektar çox, yəni 2 min 250 hektar sahədə "ağ qızıl" yetişdirilir. Koronavirus pandemiyasının yaratdığı əngəllər, habelə su qıtlığı probleminə baxmayaraq, Biləsuvar pambıqçıları həmişə olduğu kimi, 2020-ci ili də uğurla başa vurmaq əzmindədirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# İntensiv bağçılıq təsərrüfatında istehsal olunan məhsul yerli bazarla yanaşı, xaricə də göndərilir

Cəbhə bölgəsində yerləşən Tərtər rayonunda əhalinin əsas məşğuliyyət növlərindən biri bağçılıq və tingçilikdir. Rayonda aqrar sektorun digər sahələri ilə yanaşı, bu istiqamətdə də inkişafa nail olunub. Son illərdə rayon ərazisində meyvə bağlarının sahəsi artırılaraq 1510 hektara çatdırılıb.

Hazırda rayonun digər bağlarında olduğu kimi, "Aqropat" MMC tərəfindən Tərtərin Xoruzlu kəndində yaradılmış intensiv bağçılıq təsərrüfatında da meyvə yığımı davam edir. MMC-nin direktoru Elçin Maqsudov AZƏRTAC-a bildirib ki, xarici bazarlara çıxarmaq üçün rəqabətqabiliyyətli məhsul istehsal etmək məqsədilə ilkin olaraq 128 hektarda yaradılan və sonradan sahəsi 250 hektara çatdırılan təsərrüfatda İspaniya və Türkiyədən gətirilmiş yüksək məhsuldar meyvə tingləri müasir texnologiya əsasında əkilib. Bağçılıq təsərrüfatının yaradılmasında İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən də istifadə edilib. Burada almanın, armudun, gilasın, əriyin, gavalının, şaftalının müxtəlif sortları, həmçinin alça, nar, xurma və badam ağacları müasir texnologiyalar əsasında becərilir.

Bağın salınmasında xaricdən dəvət olunmuş mütəxəssislərdən məsləhət alınıb. Rayonun beş illik iqlim şəraiti nəzərdən keçirilib. Meyvə ağaclarının küləkdən qorunması üçün bağın kənarlarında şam ağacları əkilib. Təsərrüfatda yollara asfalt örtük salınıb, bağın daxilindəki yollar çınqıl tökülərək hamarlanıb. Bağın suvarma suyu ilə təmin olunması üçün 45 min və 21 min kubmetr tutumu olan iki su anbarı inşa edilib. Tərtərçaydan anbarlara vurulan su motorlar vasitəsilə filtrlərə ötürülür, sonra isə bağa verilir. Bağda ağacların suvarılması mərkəzləşdirilmiş qaydada - elektron sistemlə, damlama üsulu ilə həyata keçirilir. Ənənəvi üsulla suvarmadan fərqli olaraq damlama üsulu ilə suvarma zamanı suya qənaət edilir, torpağın keyfiyyəti qorunur, məhsuldarlıq artır.

İntensiv bağçılıq təsərrüfatında işçilər üçün istirahət otaqları, yeməkxana, ofis binası inşa edilib. Bu il, həmçinin soyuducu anbarın tikintisi nəzərdə tutulub. Gələcəkdə bağın genişləndirilməsi davam etdiriləcək.

Ötən il ilk barını verən ağaclarda bu il bol məhsul yetişib. Artıq alça, ərik, yastı şaftalı və armudun yaylıq sortunun yığımı başa çatıb. Hazırda şaftalının nektarin sortunun yığımı həyata keçirilir. Hər hektarın məhsuldarlığı orta hesabla 15-20 tondur. Yığılan məhsul çeşidlənir, qablaşdırılır, soyuducu anbarda çəyirdəyi müəyyən olunmuş temperaturda soyudulur, sonra satışa çıxarılır. Təsərrüfatda istehsal edilən məhsul yerli bazarlarla yanaşı, Rusiya bazarlarına da göndərilir. Avqust ayının 20-dən sonra armudun digər sortunun və badamın yığımına başlanılacaq.

Təsərrüfatda işlə təmin olunan sakinlərdən biri də Gülşən Ağayevadır. "Bağçılıq təsərrüfatı yaranandan burada işləyirik. Bağın salınmasında, ağacların becərilməsində iştirak etmişəm. Keçən il meyvələrin ilk barı olub. Bu il karantin dövrünün tələblərinə uyğun olaraq işləyirik. Məhsulumuz boldur, meyvələr gözəldir", - deyə G.Ağayeva bildirib.

İntensiv bağçılıq təsərrüfatında 70 nəfər daimi, 200 nəfərə yaxın sakin isə mövsümi işlərə cəlb olunub.



# Əkin sahələrində fitosanitar müşahidələr aparılıb

Qida Təhlükəsizliyi Agentliyi respublika ərazisində zərərli orqanizmlərin yayılmasının qiymətləndirilməsi və onlara qarşı mübarizə tədbirlərinin təşkili məqsədilə fitosanitar monitorinqləri davam etdirir.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, fitosanitar müfəttişlər Bərdə, Tərtər, Yevlax və Ağdam rayonlarında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin əməkdaşları ilə birgə əkin sahələrində monitorinq keçiriblər.

Monitorinq zamanı əkin sahələrində 8,8 hektar sahədə təhlükəli karantin alaq otu olan tikanlı quşüzümü ilə sirayətlənmə aşkar edilib. Təhlükəli karantin alaq otunun digər sahələrə yayılmasının qarşısını almaq məqsədilə 4,5 hektar sahədə kimyəvi, 4,3 hektar sahədə isə mexaniki üsulla mübarizə tədbirləri həyata keçirilib. Mexaniki üsulla mübarizə nəticəsində sahələrdən yığılmış tikanlı quşüzümü yandırılaraq məhv edilib.

Dərmanlanmış sahələrin kənarlarına isə kimyəvi mübarizənin aparıldığı barədə xəbərdaredici lövhələr quraşdırılıb.

# Xızının bərəkətli çöllərində bol məhsul yetişdirilib

Bu gün taxıl tədarükü iqtisadiyyatımızın ən önəmli sahələrindəndir. Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçısı, hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.

Dağlar qoynunda yaşamağın asan olmadığı hamıya yaxşı bəllidir. Aran yerlərində əkdiyin məhsulu düzəngahdan rahat becərdiyin kimi elə biçəndə də çətinliklə üzləşmirsən. Dağlıq ərazilərdə isə xeyli problemlə qarşılaşmalı olursan. Buna görə də bu cür yerlərdə böyük zəhmət çəkmək lazım gəlir.

Xızı təkcə təbiəti ilə deyil, həm də zəhmətkeş insanları ilə seçilir. Dağ kəndləri və istirahət mərkəzləri ilə xəritələnən rayonun kənd təsərrüfatında bitkiçilik və heyvandarlıq əsas yer tutur. Taxıl bunların arasında strateji əhəmiyyətinə görə xüsusi olaraq seçilir.

5300 hektar əkin sahəsinin 3370-ində buğda, 1930-unda isə arpa becərilib. Taxıl əkilən ərazinin böyük hissəsi dəmyə, bir hissəsi isə suvarılan sahələrə aiddir. Xızıda taxılla yanaşı, müxtəlif ərazilərdə yonca, tərəvəz və başqa bitkilər də əkilib.

Ümumilikdə rayon üzrə torpaqların suvarılaraq yenidən istifadə edilməsinə xüsusi diqqət yetirilir ki, bu da iqtisadi baxımdan irəliyə doğru atılan uğurlu addımdır. Sosial vəziyyətini yaxşılaşdırmaq istəyən xızılılar həmin ərazilərdə hazırda müxtəlif bitkilərin becərilməsi ilə məşğuldurlar.



Taxıl biçininə havaların bir qədər yağışlı keçməsi ilə əlaqədar ara verilsə də, onun itkisiz yığımı xızılıları bu gün ən çox düşündürən məsələdir. Artıq arpa tamam biçilib qurtarıb. Hər hektardan 18 sentnerə yaxın məhsul götürülüb. Bu da əvvəlki ildəkindən çoxdur.

Rayonda müxtəlif buğda sortları əkilir ki, bu da həmin ərazilər üçün hesablanıb. Xızının əsasən aran yerlərində arpa becərilir. Lakin dağlıq ərazilərdə əkilən buğda sortu da xüsusi olaraq seçilir. Çünki bu ərazilərə yay bir qədər gec gəlir. Aran tərəflərdə biçinin yarısı başa çatanda bu ərazilərdə kombaynlar yenicə sahələrə çıxır. Buna görə də mütəxəssislər "Qobustan", "Əzəmətli", "Nurlu -99", "Azəri-95", "Günəşli", "Günel" sortlarına üstünlük verirlər. Cari ildə hər hektardan daha çox məhsul götürülməsi nəzərdə tutulub.

Əvvəlki illərdə taxıl dövlət və bələdiyyələr tərəfindən əkilirdi. Şəxsi təsərrüfatlar azlıq təşkil edirdi. Bu il rayonda taxıl biçinində belə təsərrüfatların sayı yetərincədir. Fərrux Haqverdiyev, Nihad Əliyev, İsaxan Abdullayev, Zinyət Yaqubova, Nəsrulla Abdullayev və digərləri çəkdikləri zəhmət hədər getməsin deyə, öz işlərinin başındadırlar. Şəxsi texnikalarından istifadə edən fermerlər vaxt və şərait göstəricilərinə uyğun hərəkət edirlər. Bu da məhsulun itkisiz yığımı deməkdir.

Biçin başlayandan taxılçıların istifadə etdikləri texnika demək olar ki, işlək vəziyyətdə olub. Bu da biçinin maksimum dərəcədə aparılması deməkdir. Giləzi, Şorabad, Stalçay, Fındığan, Tıxlı, Qarabulaq, Ağdərə kəndlərində məhsuldarlığın yüksək olacağını mütəxəssislər də təsdiqləyir.

Rayonda biçin başlayandan təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir. Əkin sahələrinin yanğınla üzləşməməsi üçün rayonun əlaqədar təşkilatları xüsusi iş rejiminə keçiblər. Taxıl biçimi zamanı yanğın törədəcək bütün məsələlər öncədən nəzərə alınıb. Elə buna görədir ki, son illərdə texniki qaydalara riayət edildiyindən heç bir neqativ hadisə baş verməyib. Şəxsi təsərrüfat sahələrində taxıl becərən və biçən sahibkarlar təhlükəsizlik qaydaları ilə tanış olur və gündəlik öz nümayəndələrini ərazilərə təhkim edirlər.

Yanacaq məsələsinə gəlincə, bu məsələdə rayonda lazımi qaydada həll olunub. Biçin başlayandan yanacaq və sürtkü yağları ilə bağlı problem yaşanmayıb.

Onu da qeyd edək ki, rayonda taxıl biçini sona çatmaq üzrədir. Məhsuldarlıq 18 sentnerdir. 9 kombayn taxılı biçib başa çatdırdıqdan sonra Quba və Qusar rayonlarına köməyə yollanacaq. Bu da öz növbəsində həmin rayonlarda biçinin sürətlənməsi deməkdir.

Kəndlinin işi bununla bitmir. Qarşıda bol bağların barlı yığımı, yəni payız gəlir.

***Akif ƏLİYEV,***
***Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Hövsan və Abşeron Olimpiya İdman kompleksləri müvəqqəti xəstəxanaya çevrilib

Yeni növ koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması və vaxtında qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə bağlı ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına əsasən görülən işlərin davamı olaraq Gənclər və İdman Nazirliyinin tabeliyindəki Hövsan və Abşeron Olimpiya İdman komplekslərinin müvəqqəti xəstəxanaya çevrilməsi barədə qərar qəbul edilib.






AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyi tərəfindən görülmüş işlərlə yaxından tanış olmaq üçün avqustun 5-də Gənclər və İdman naziri Azad Rəhimov və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı komplekslərdə yaradılan şəraitlə tanış olublar.

Hövsan, eləcə də Abşeron Olimpiya İdman komplekslərinin təyinatının müvəqqəti dəyişdirilməsi işlərinə iyulun ilk həftəsindən başlanılıb. Hər iki kompleksdə xəstələrin müvafiq həcmdə bərabər və təhlükəsiz şəkildə oksigenlə təminatı üçün stansiyadan palatalara xüsusi tibbi borular çəkilib, binanın daxilində müasir paylayıcı avadanlıq quraşdırılıb. Çarpayı sayına uyğun olaraq palatalarda divar tipli oksigen ötürücü, tənzimləyici və nəmləndirici avadanlıq və maskalar quraşdırılıb.

COVID-19 xəstələrinin müalicəsində zəruri olan oksigenin müvafiq həcmdə tam təmin edilməsi üçün qısa müddətdə Türkiyədən alınaraq komplekslərin hər birinin ərazisində 54 kubmetr gücündə müasir oksigen istehsalı stansiyası quraşdırılıb. Stansiyada 75 kilovat gücündə kompressor, qurutma-soyutma qurğusu, 54 kubmetr (900 litr/saniyə) gücündə 95 faizdən artıq saflıqda oksigen təmin etmə imkanı olan oksigen generatoru, xüsusi filtr dəstləri və digər avadanlığın da quraşdırılması təmin olunub. Eyni zamanda stansiyada ehtiyat oksigen tutumları quraşdırılaraq onların avtomatik təchizata qoşulmasını təmin edən 150 kub-saat gücündə idarəetmə sistemi yaradılıb. Stansiyaları elektrik enerjisi ilə təmin etmək üçün yeni xətlər çəkilib.

Ümumilikdə Hövsan və Abşeron Olimpiya İdman komplekslərinin binaları qaydalara uyğun şəkildə funksional zonalara bölünərək xəstələrin qəbulu və evə yazılması, tibb heyətinin binaya təhlükəsiz giriş-çıxışı, qida və digər malların qaydalara uyğun şəkildə qəbul edilməsi və paylanması üçün lazımi keçidlər (şlüzlər) yaradılıb. Binada dərman və dezinfeksiya vasitələrinin, tibb heyətinin qoruyucu vasitə və geyimlərinin, digər malların saxlanılması üçün anbarlar, həkim otaqları, növbətçi tibb bacısı postları və digər zəruri otaqlar qurulub. Palatalar müvafiq sayda çarpayılar, rəflər, yataq dəstləri və dəsmallarla təchiz edilib.

Məlumat verilib ki, komplekslərdə yaradılan şərait COVID-19 xəstələrinin müalicəsinin burada uğurla aparılmasına tam imkan verir.

Abşeron Olimpiya İdman Kompleksinin üç idman zalında və foyesində müvəqqəti arakəsmələr qurulmaqla çarpayı sayı 277 nəfər olan xəstəxana palataları və 10 çarpayı yerlik reanimasiya zalı yaradılıb. Tibb heyətinin istirahət və yaşayışı üçün kompleksin 45 nəfərlik mehmanxanasından istifadə edilməsi nəzərdə tutulub. Kompleksdə fəaliyyət göstərən yeməkxana və camaşırxana da tibbi heyətin istifadəsinə veriləcək.

Hövsan Olimpiya İdman Kompleksinin iki idman zalında isə müvəqqəti arakəsmələr qurulmaqla çarpayı sayı 280 nəfər olan xəstəxana palataları və 10 çarpayı yerlik reanimasiya zalı quraşdırılıb. Kompleksin fasiləsiz elektrik təchizatı üçün müvafiq gücdə generatorlar quraşdırılıb, cari təmir işləri görülüb. Binalara giriş-çıxış üçün əlavə panduslar yaradılıb.

## Avqustun 5-dən etibarən ezamiyyələrin icaze.e-gov.az portalına əlavə olunması imkanı yaradılıb

COVID-19 infeksiyasına yoluxma dinamikası nəzərə alınmaqla avqustun 31-i saat 00:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərləri və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonlarında tətbiq olunacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu müddətdə həmin şəhər və rayonlarda giriş-çıxış əvvəlki qaydada tənzimlənəcək.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə fəaliyyətinə icazə verilmiş sahələrdə çalışan əməkdaşların ezamiyyələrinin avqustun 5-dən icaze.e-gov.az portalına əlavə olunması imkanı yaradılıb. Bunun üçün qurumun möhür səlahiyyətli şəxsi **icaze.e-gov.az** portalında "İcazələr" bölməsinə daxil olur. Açılmış bölmədə "Əməliyyatlar" sütunundan "ezamiyyə et" düyməsinə klik edərək müvafiq məlumatlar doldurulur və təsdiq edilir.

Əgər əməkdaşın indiyədək sistemdə icazəsi olubsa, bu zaman "İcazələr" bölməsinə daxil olaraq "Aktivləşdir" düyməsinə klik etmək, sistemə indiyədək daxil edilməyən əməkdaş üçün isə "Yeni" düyməsinə klik edərək öncə əməkdaşa icazə əldə etmək lazımdır.

Vətəndaşlar yaranan suallarla əlaqədar "ASAN xidmət"in 9108 Çağrı Mərkəzinə müraciət edə bilərlər.

## Fövqəladə Hallar Nazirliyi çimərliklərdən istifadəyə dair əhaliyə müraciət edib



Fövqəladə Hallar Nazirliyi (FHN) çimərliklərdən istifadəyə dair əhaliyə müraciət edib. FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə çimərlikdə xoş zaman keçirmək üçün bir sıra təhlükəsizlik qaydalarına əməl edilməsinin vacibliyi qeyd edilib.

Bildirilib ki, yeni növ koronavirusdan qorunmaq məqsədilə çimərlikdə, ailə üzvləri istisna olmaqla, insanlar arasındakı məsafə 2 metr, çətirlərin oxları arasındakı minimal məsafə 4 metr olmalıdır. Qapalı yerlərdə mütləq, açıq ərazilərdə və su ilə təmas olmayan yerlərdə mümkün qədər tibbi maskadan istifadə edilməlidir. Özünüzdə COVID-19 infeksiyasına yoluxmaya xas simptomlar olan qızdırma, quru öskürək və s. hiss etdikdə dərhal tibb məntəqəsinə müraciət olunmalıdır.

Bundan başqa, müraciətdə nəzərdə tutulmamış ərazilərdə çimməyin, çimmə zonasının işarələnmiş sərhədlərindən kənara üzməyin, küləkli havada dənizə girməyin, çimərlikdə gecələməyin, sərxoş halda çimərlikdə olmağın, suda kobud hərəkətlər etməyin, çimərlikdə balıq tutmağın, xilasetmə texnikasından başqa digər qayıq və kiçik gəmilərlə çimərliyə daxil olmağın qadağan olduğu da əhalinin diqqətinə çatdırılıb.

"Çimərlikdə uşaqlar nəzarətsiz qalmamalı, xəbərdaredici nişan və lövhələrin göstərişlərinə, xilasedicilərin çağırış və tələblərinə sözsüz əməl edilməlidir. Qızmar günəş altında fasiləsiz dayanmaq, hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir.

Qaydalara biganəlik həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin", - deyə FHN-in əhaliyə müraciətində xüsusi vurğulanıb.

## Pandemiya qəbul ballarına təsir edəcəkmi?

### Ekspertlər hesab edirlər ki, keçid ballarının dəyişdirilməsinə ehtiyac var

Planeti koronavirus pandemiyası təkcə insanların vərdişlərini, yaşam və həyat tərzini dəyişdirmədi, eləcə də dünyada özünün qanunlarını diktə etdi. Nəticədə bütün sahələrdə pandemiya dövrünün tələblərinə uyğun yeni qaydalar müəyyənləşdi və tətbiq olundu. Koronavirus təhsil sisteminə də təsirsiz ötüşmədi. İlkin mərhələdə ölkələrin təhsil sistemi pandemiyaya adekvat reaksiya verə bilmədi, sadəcə proseslərin arxasınca getdi.





Epidemiyanın qısa müddət sürəcəyi və tezliklə təhsil müəssisələrinin fəaliyyətini davam etdirəcəyi barədə gözləntilər vardı. Lakin pandemiyanın kütləvi itkilərlə müşayiəti və hələ uzun zaman davam edəcəyi aydınlaşandan sonra təhsilin fasiləsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər görülməyə başlandı.

Azərbaycanda martın 3-dən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi mərhələlərlə tədris ilinin sonunadək dayandırıldı. Xüsusi karantin rejimi ilə əlaqədar orta məktəblərin buraxılış imtahanları, eləcə də ali və orta ixtisas məktəblərinə qəbul imtahanları bir neçə dəfə təxirə salındı. İyun ayından etibarən Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən imtahanlar pandemiya şəraitinin tələblərinə uyğun şəkildə bir neçə mərhələdə həyata keçirilməyə başlandı. İyulun 29-da və 30-da DİM növbəti buraxılış (qəbul) imtahanlarını təşkil etdi. Artıq qarşıda ixtisas qrupları üzrə həlledici imtahan mərhələsi var.

Hazırda valideynləri və abituriyentləri narahat edən məqam qəbul balları ilə bağlıdır. Orta məktəblərdə dərslərin dayanması, hazırlıq kursları və repititorluğun fəaliyyətinə məhdudiyyət tətbiq edilməsi şagirdlərin normal dərsdən geri qalmasına səbəb oldu. Üstəlik, onlayn təhsilin səviyyəsinin yüksək olmaması istər-istəməz onların bilik və bacarığına mənfi təsir etdi. Bundan başqa, imtahan prosesinin gecikməsi və dəfələrlə təxirə salınması şagirdlər arasında müəyyən psixoloji gərginlik yaratdı. Sirr deyil ki, bütün bu məqamlar abituriyentlərin imtahan nəticələrinə təsir göstərən amillərdir.

Təhsil texnoloqu, filologiya üzrə fəlsəfə doktoru Şəmil Sadiqin fikrincə, DİM blok imtahanında sualların çətinliyini xeyli dərəcədə asanlaşdırmalıdır. Sualların qismən sadələşməsi, şagirdlərin yüksək bal toplamasına və psixoloji yorğunluğun vurduğu zərbədən qurtulmasına böyük dəstək ola bilər: "Ümumiyyətlə isə, bu addım uzun illər öncədən atılmalı idi. Sualların çətinlik dərəcəsi ağırlaşdıqca ümumi bal səviyyəsi aşağı düşür. Ballar aşağı düşdükcə də universitetlərə qəbul zamanı keçid balı da aşağı düşməli olur. Bu da ona gətirib çıxarır ki, universitetlərə ayrılan yerlər dolmur. Deməli, universitetlərə sənəd verən şagird 150-200 balla qəbul olunur, yuxarı bal toplayan şagirdlərin sayı az olur. Halbuki sualları elə müəyyənləşdirmək olar ki, ortalama bal səviyyəsi çox yüksək olsun. Bu, birbaşa suallara qoyulan tələbdən asılıdır, yəni keçid ballarının 150-200 yox, 300-400 balın üstündə olması sualı tərtib edən şəxsin əlindədir. Hazırda isə biz bunun əksini görürük, suallar çətin olduğundan orta statistik nəticə aşağı düşür və keçid balları 150-250 bal aralığında olur. Gəlin bir anlıq düşünək: əgər hər hansı bir şagird universitetə 150 balla yox, 300-400 balla qəbul olsa, nə qazanacaq. Birincisi, yüksək əhvali-ruhiyyə, ikincisi, sabaha böyük ümid, üçüncüsü, ailə, dost-tanış, universitetdə müəllimlərin ciddi qınağından qurtulmaq. Belə olarsa, dost-tanışın "nə böyük iş görmüsən ki, 150 bal toplamısan", universitetlərdə müəllimlərin "günah sizi 150 balla universitetə qəbul edəndədir" kimi tənələri o gəncə "zəifsən" psixologiyasını yükləməz. Hər il qəbul imtahanlarından sonra elan edilən statistika ifadə edir ki, sən demə, ölkədə təhsilin səviyyəsi aşağı imiş. Beləliklə də təhsilimizə inam itir. Bir halda ki, 150 balla universitetə qəbul olub oxumaq mümkünsə, o zaman niyə həmin gənc 300 və üstün balla qəbul olmasın? Onsuz da təhsil həm də bir biznes sahəsidir və yerli universitetlərə qəbul olmayan minlərlə gənc sadəcə attestatla xarici universitetlərə üz tutur. Bu da ölkədən gedən böyük bir maliyyədir. Bu maliyyə ölkədə qalsa, xalqın təhsilə inamı artsa, bunun nəyi bizim üçün zərərli olar?"

Ş.Sadiqin sözlərinə görə, SAT, YÖS, TOEFL, İELTS kimi beynəlxalq imtahanlar var ki, 5-6 ay ərzində cəmi iki fəndən yaxşı hazırlaşmaqla bizim universitetlərdən qat-qat güclü təhsil verən ali məktəblərə qəbul olmaq mümkündür. Şagird sadəcə iki fəndən hazırlaşaraq, bəzən də ödəniş və təhsil keyfiyyəti bizim universitetlərlə müqayisədə daha münasib olan ali məktəbləri qoyub, niyə ağır proqramlarla hazırlaşaraq, yerli universitetlərdə təhsil almağa maraqlı olsun?! Məhz bunun nəticəsidir ki, 8-ci sinifdən sonra şagirdlərimizin əksəriyyəti qəbulda lazım olmayan fənləri oxumaqdan əl çəkir və rahat, kiçik bir zəhmətlə xarici proqramlarla hazırlaşır: "Şagird iki fəndən - riyaziyyat və ingilis dilindən hazırlaşmaqla (bu da maksimum 7-8 kitab olar) universitetə qəbul ola bilirsə, niyə 60 kitab oxumalıdır? Normal məntiqi olan insan bunu anlayır. Bu zaman bilirsiniz nə baş verir? Biz özümüzü ingilis dilli vətəndaş yetişdirməyə sürükləyirik. O, artıq Azərbaycan dilini, tarixini, coğrafiyasını, ədəbiyyatını oxumaqdan əl çəkir. Bu səbəbdən şagirdlər 8-ci sinifdən hazırlığa başlayır. Məhz qəbul suallarının ağırlığı valideynləri repetitorlara yönləndirir ki, bu da "təhslimiz bərbaddır", "təhsilimiz geriyə gedir", "məktəbdə təhsil yoxdur", "repetitorlar olmasa, batarıq" düşüncəsini aşılayır. Bir az düşünsək, sualları sadə, anlaşıqlı, məntiq əsaslı, yəni normal səviyyədə edərək, şagirdlərimizi məktəblərə qaytara bilər, repetitorluq, kursçuluq bazarına bu qədər ehtiyac duymarıq. Arada düşünürəm ki, sanki hansısa əl bu repetitorluq bazarına nəzarət edir və bunun çökməsini istəmir. Bir növ şagirdləri əlavə hazırlıqlara yönləndirir. Suallara baxanda aydın görünür ki, xüsusi hazırlıq olmasa, ciddi şəkildə əzbərlədilməsə, priyomlar öyrədilməsə, məktəb dərsi ilə qəbulda normal bal toplamaq mümkün deyil. Çünki Təhsil Nazirliyinin dərslikləri ilə yanaşı, DİM-in də dərslikləri var və müəllimlər bu kitabları da şagirdlərə aldırmaq, oxutdurmaq məcburiyyətindədirlər. Nə qədər etiraz edilsə də, proqram Təhsil Nazirliyinin olsa da, suallar DİM-in vəsaitləri əsasında hazırlanır".

Təhsil texnoloqu onu da bildirir ki, hər il özəl ali məktəblərin əksəriyyətində plan yerlərinin yarımçıq qalması da özəl təhsil sektorunun inkişafının qarşısını alır. Plan yerləri dolarsa, ciddi rəqabət yaranarsa, həmin universitetlər ödənişlərinə yenidən baxar, yeni universitetlər açılıb daha uyğun təhsil təklif edər. Qəbul prosesini sadələşdirməklə, universitetlərin buraxılışını sərtləşdirməklə, daha yaxşı nəticələr əldə etmək mümkündür: "Düşünürəm ki, universitetlərə qəbul suallarını sadələşdirməklə, neçə gənci psixoloji travmadan azad edə, başıuca gəzməsinə şərait yarada bilərik. Təhsilimizin səviyyəsinin heç də deyilən qədər aşağı olmadığını görüb müəllimlərə inanarıq, onlara minnətdar olarıq və stimul verərik, xarici universitetlərə axının qarşısını alarıq, valideynlərimizin büdcəsinə xeyir verərik, şagirdlərimizi vətəndaş kimi yetişməyə yönləndirərik".

Təhsil eksperti Kamran Əsədov isə qeyd edir ki, mart ayından etibarən tədris prosesinin dayanması, şagirdlərin hazırlıq kursları və repetitor fəaliyyətinin imkanlarından məhrum olması onların qəbul imtahanlarının nəticələrinə birbaşa təsir göstərdi. Bu, DİM tərəfindən keçirilən imtahanların 1-ci mərhələsinin nəticələrini təhlil edən zaman müəyyənləşib. Belə ki, maksimum 300 bal toplamaq imkanı olan bu mərhələdə şagirdlər arasında ən yüksək nəticəni cəmi bir neçə şagird göstərə bilib: "Buna bir neçə amil təsir göstərib: dərslərin dayanması, hazırlıq kurslarının və repetitor fəaliyyətinin qadağan edilməsi. şagirdlər üçün sınaq imtahanlarının keçirilməməsi, teledərs və virtual dərslərin əlçatan və keyfiyyətli olmaması. Digər tərəfdən, şagirdlər 6 aydan çoxdur ev şəraitindədirlər və psixoloji cəhətdən gərginlik yaşayırlar ki, bu da onların imtahanda özünü idarəetməsinə çətinlik yaradır, diqqət pozğunluğuna səbəb olur".

K.Əsədovun dediyinə görə, abituriyentləri ötən illərdə orta ixtisas təhsili müəssisələrinin ayrı-ayrı ixtisaslarına müsabiqə zamanı formalaşmış keçid balları da maraqlandırır. Bu da təbiidir, çünki keçid balları ixtisas seçimi zamanı düzgün istiqamət götürməkdə müəyyən mənada oriyentir rolunu oynayır: "Ayrı-ayrı ixtisaslar üzrə minimal keçid balları müvafiq ixtisası öz ərizəsində göstərən abituriyentlərin sayı, ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələri əsasında formalaşır. Bu göstəricilərin ildən-ilə dəyişməsi nəticəsində hər il minimal keçid ballarında müəyyən dəyişmə müşahidə olunur. Bununla belə, burada oxşar meyillər, tendensiyalar da özünü göstərir. Amma birmənalı şəkildə deyə bilərəm ki, pandemiya qəbul imtahanlarının nəticələrinə təsir göstərəcək".

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Effektiv tədbirlər yumşaldılmalara zəmin yaratdı

*Əvvəli 1-ci səh.*

Dünya təcrübəsindən də məlumdur ki, virusun erkən aşkarlanması infeksiyanın yayılmasının qarşısını zamanında almağa kömək edir. Bu sahədə görülən operativ tədbirlər nəticəsində hazırda ölkəmizdə 31 laboratoriya fəaliyyət göstərir. Qarşıda isə onların sayının 45-ə çatdırılması planlaşdırılır. İndiyə qədər Azərbaycanda 750 mindən çox test keçirilib ki, bu da adambaşına keçirilmiş testlərin sayına görə dünyada qabaqcıl yerlərdə olmağımıza imkan verib.

Azərbaycan dövləti insanların tezliklə sağalması və ağır vəziyyətdən az itkilərlə çıxması üçün bütün imkanlarını səfərbər edib və hazırda da bu istiqamətdə lazım olan bütün işlər görülür.

### SMS icazə ləğv olundu, çimərliklər açıldı

Ölkədə atılan qabaqlayıcı addımlar, tətbiq olunan karantin rejimi sayəsində pandemiyanı nəzarətdə saxlamağa, hətta müsbət dinamika əldə etməyə nail olundu.

Mərhələli şəkildə koronavirusa qarşı həyata keçirilən effektiv tədbirlər tədricən sərt karantin rejimindən yumşaldılmalara keçidi sürətləndirib. Hazırda da koronavirusun ilkin mərhələsində olduğu kimi, virusa yoluxanların sayında xeyli azalma, sağalanların sayında isə artım müşahidə olunur.

Nazirlər Kabineti yanında Operativ Qərargah hazırkı sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi yumşalmaların tətbiqinə qərar verib.

Belə ki, ötən gündən etibarən sərtləşdirilmiş xüsusi karantin zonasına daxil olan şəhər və rayonlarda şəxslərin yaşayış yerini və olduğu yeri SMS icazə, xidməti vəsiqə, icaze.e-gov.az portalı vasitəsi ilə tərk etmək sistemi ləğv olunub.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən karantin rejiminin tələblərinə uyğun müəyyən edilən qaydalar çərçivəsində avqustun 5-dən çimərliklər istifadəyə verilib.

### Bu məhdudiyyətlər qüvvədədir

Eyni zamanda COVID-19 infeksiyasına yoluxma dinamikası nəzərə alınmaqla sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiqi Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərləri və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonlarında 31 avqustadək davam etdəcək.

Sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 13 şəhər və rayonda bir sıra məhdudiyyətlər qüvvədədir.

Həftəsonları bütün ictimai nəqliyyatın hərəkəti, nəzdindəki ərzaq mağazaları və apteklər istisna olmaqla, iri ticarət mərkəzləri və "Mall"ların fəaliyyəti, ictimai iaşə obyektlərində müştərilərə yerində xidmətlər, muzey və sərgi zallarının fəaliyyəti bu sıradadır.

Bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin fəaliyyəti (imtahan, müsabiqə, müsahibələr və müxtəlif arayış və sənədlərin verilməsi ilə bağlı vətəndaş müraciətlərinin qəbulu istisna olmaqla), açıq havada idman yarışları və oyunları da daxil olmaqla, bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirlərinin keçirilməsi dayandırılıb.

### Yumşaldılmalar COVID-19-un yox olması kimi başa düşülməməlidir

Operativ Qərargah virusa yoluxanların sayının azaldılması, vətəndaşları və yaxınlarını virusa yoluxmadan maksimum qorumaq üçün mövcud preventiv tədbirlərin şərtlərinə, tibbi-profilaktik qaydalara riayət etməyə, ictimai yerlərdə 5 nəfərdən artıq qruplarda cəmləşməməyə, sosial məsafəni saxlamağa, qoruyucu maskalardan istifadəyə çağırır.

Unudulmamalıdır ki, yumşaldılmanın COVID-19-un yox olması kimi başa düşərək qaydalara əməl etməmək, məsuliyyətsizlik göstərmək virusun yenidən alovlanmasına səbəb ola bilər.

Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev də bu məsələyə toxunaraq vətəndaşları daha diqqətli olmağa çağırdı: "Müəyyən miqyas və birgə səylərimiz nəticəsində yoluxmanın azalmasına nail olduq. Amma bu bizi qane etmir. Gündəlik 200-dən çox yoluxma var. Buna da kütləvi tədbirlər səbəb olub. Biz daha aşağı yoluxma gözləyirdik. Buna görə də gələcəkdə bundan çəkinməyə çağırırıq".

### Pandemiya tələblərinə əməl etsək, payız-qış mövsümündə digər respirator viruslara qarşı da mübarizə apara bilərik

Operativ Qərargahın brifinqində o da qeyd edildi ki, payız-qış aylarında kəskin respirator virus infeksiyalarının artması qaçılmazdır. Buna görə də daha diqqətli olmalıyıq.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva məlumat verib ki, hazırda xəstəxanalardakı aktiv xəstə sayının azalması üçün çalışırıq. May ayında yumşalma nəticəsində xəstə sayında artım olmuşdu. Ümid edirik ki, analoji vəziyyət bu dəfə olmayacaq.

TƏBİB rəsmisi bildirib ki, Azərbaycana xaricdən mütəxəssislərin gəlməsi vacib amildir: "Pandemiya ilə mübarizəyə hər zaman hazırıq. Payız-qış mövsümündə kəskin respirator virus infeksiyalarının artması qaçılmazdır. Əgər koronavirusla mübarizədə tələb olunan qaydalara ciddi əməl etsək, digər viruslara qarşı da mübarizə apara bilərik. Maskadan hamı istifadə etməli, gigiyenik qaydalar nəzərə alınmalı və sosial məsafə mütləq qorunmalıdır".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




## Azərbaycanda koronavirus infeksiyasından daha 492 nəfər sağalıb, 193 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 492 nəfər sağalıb, 193 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 33 min 103 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 28 min 840 nəfər müalicə olunaraq sağalıb, 476 nəfər vəfat edib. Aktiv xəstə sayı 3787 nəfərdir.

Ötən müddət ərzində 759 min 129 test aparılıb. Dünənki test sayı isə 7883-dür.

# Abad kənd yolundan bəlli olar

## Bölgələrimizin sosial-iqtisadi inkişafına xidmət edən yeni yollar şəbəkəsi genişləndirilir

Əvvəli 1-ci səh.



Qəbələ rayonunda Əmirvan-Vəndam avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. Bu yol investisiya xərclərindən ayrılmış 13,1 milyon manat vəsait hesabına tikilib, uzunluğu 28 kilometrdir, 13 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirir. Yol boyu suötürücü borular, yol nişanları, göstərici lövhələr, siqnal dirəkləri və 5 avtodayanacaq quraşdırılıb. Dəstəmazçay üzərində yeni körpü tikilib.

Prezident İlham Əliyev Qəbələyə səfəri zamanı yolun açılışında iştirak edib. Bu zaman dövlət başçısına 20 min nəfər əhalisi olan 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər kəndlərdən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində tikilən yeni körpü və Bum qəsəbəsinə gedən, hazırda bərpa edilən avtomobil yolu barədə də məlumat verilib. Burada işlər tamamlandıqdan sonra ətraf yaşayış məntəqələrinin sakinləri xeyli rahatlıq tapacaqlar. Çünki bundan əvvəl onlar çayın bir tərəfindən o biri tərəfinə keçmək üçün təqribən 30 kilometr əlavə məsafə qət etməli olurdular. Yeni körpünün inşası, həmçinin Bum qəsəbəsindən körpüyə qədər olan yolun yenidən qurulması nəticəsində 20 min nəfər əhali əlavə yola vaxt sərf etmədən birbaşa rayon mərkəzinə və qonşu kəndlərə gedib-gələ biləcək.

Şəki rayonunun Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolu da yenidənqurmadan sonra istismara verilib. Prezidentin ötən il imzaladığı müvafiq sərəncamla yenidən qurulan bu yol 11 min əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirir. Avtomobil yolunun 17-ci kilometrliyində Əyriçay çayı üzərində uzunluğu 59 metr olan dəmir-beton körpü təmir edilib. Hazırda Şəki rayonunun ərazisində yerləşən, Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun 134 kilometrliyindən ayrılan Şirinbulaq avtomobil yolunun tikinti layihəsi də həyata keçirilir.

Keçən ay Prezident İlham Əliyev, həmçinin yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında iştirak edib. Tədbir çərçivəsində Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun da təqdimatı olub. Dövlət başçısına, eləcə də Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yol layihəsi çərçivəsində görülən işlər barədə məlumat verilib.

29 kilometrlik Balakən-Qazbinə-İtitala avtomobil yolu 18 min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirir.

9 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun uzunluğu 25 kilometrdir.

İsmayıllı rayonunda isə Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. 3,8 milyon manat investisiya xərci hesabına tikilmiş 8 kilometrlik yol 2 min 800 nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirir. Yol boyu bütün lazımi infrastruktur qurulub. Bu yolun tikintisi həmin kəndlərdə yaşayan əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin yetişdirdikləri kənd təsərrüfatı məhsullarını bazarlara vaxtında aparmasına imkan yaradacaq.

Sözügedən yolun açılışında iştirak edərkən dövlət başçısına Quşencə-Zoğallıq avtomobil yolunun tikinti layihəsi də təqdim olunub. Belə ki, 3 min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən bu yolun tikintisi məqsədilə Prezidentin 25 iyun 2019-cu il tarixli sərəncamına əsasən, 2,9 milyon manat vəsait ayrılıb və inşaat işləri artıq başa çatıb. Uzunluğu 7 kilometr olan bu yol yaşayış məntəqələrinə və rayon mərkəzinə gedişgəlişi xeyli asanlaşdırıb.

Hazırda Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin yenidən qurulması layihəsi də həyata keçirilməkdədir.

Xatırladaq ki, ölkənin mühüm turizm bölgələrinə gedən bu yol ilk dəfə ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə salınıb. Yolun yenidən qurulması Prezident İlham Əliyevin bundan əvvəlki səfəri zamanı verdiyi tapşırığa əsasən layihələndirilib. Ümumi uzunluğu 85,6 kilometr olan bu yol yenidənqurma nəticəsində 9 kilometr qısalacaq, genişləndirilərək 4 hərəkət zolağından ibarət olacaq. Ağsuçay çayı üzərində yeni körpü tikiləcək.

Beləliklə, koronavirus pandemiyası hələ davam etsə də, ölkəmizdə infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində işlər öz axarı ilə gedir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, yaranmış vəziyyətə baxmayaraq, infrastruktur layihələri ixtisar edilməyəcək. Bu, yeni yolların çəkilməsində və köhnələrin əsaslı təmirində aydın görünür.

Yaşadığımız bu çətin və sınaq dolu vaxtda yolların əhəmiyyəti bir qədər də artır. Xüsusilə ərzaq məhsullarının və digər yüklərin daşınmasında yolların rahat olması çox vacibdir. Başqa sözlə, yol tikintisi layihələrinin uğurla icra edilməsi indiki dövrdə əhalinin sosial problemlərinin həllinə böyük dəstək verir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Los-Ancelesdəki Pakistan Şurası azərbaycanlılara qarşı törədilmiş vəhşilikləri pisləyib



ABŞ-ın Los-Anceles şəhərində fəaliyyət göstərən nüfuzlu Pakistan Şurası iyulun 21-də ölkəmizin bu şəhərdəki baş konsulluğunun qarşısında keçirilmiş aksiya zamanı erməni daşnakları tərəfindən Azərbaycan icmasının üzvlərinə qarşı törədilmiş zorakılığı və vəhşiliyi kəskin şəkildə pisləyən bəyanat yayıb.

Baş konsulluqdan AZƏRTAC-a bildiriblər ki, bəyanatda hadisə haqqında ətraflı məlumat verilir, bunun narahatlıq doğurduğu, yaxın tarixdə Los-Ancelesdə ilk dəfə olaraq beynəlxalq münaqişə zəminində bu cür çirkin formada vəhşiliyin həyata keçirildiyi vurğulanır. Bildirilir ki, ermənilər sakit şəkildə aksiya keçirmək əvəzinə, günahsız insanlara qarşı nifrət zəminində zorakılıq və vəhşilik nümayiş etdiriblər. Sənəddə ermənilərin icmamızın üzvlərinə məhz azərbaycanlı olduqları üçün hücum etdikləri deyilir və məsələyə ədalətli yanaşmanın vacibliyi diqqətə çatdırılır. Bəyanatda həmçinin Ermənistan-Azərbaycan münaqişəsi haqqında danışılır, beynəlxalq ictimaiyyətin işğal olunmuş ərazilərimizi Azərbaycanın torpağı kimi tanımasına baxmayaraq, buna məhəl qoymayan Ermənistanın qanunsuz işğalı davam etdirdiyi bildirilir. ABŞ-ın məsələ ilə bağlı mövqeyi qeyd olunaraq, onun Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığı diqqətə çatdırılır.

Bəyanatı yayan Pakistan Şurası həmçinin öz üzvlərinə müraciət edərək, öz konqresmenləri ilə əlaqə saxlamalarını və erməni daşnaklarının bu zorakılığı haqqında onları məlumatlandırmalarını xahiş edib.

Qeyd edək ki, hazırda ABŞ-da 1 milyona yaxın, o cümlədən Kaliforniyada 250 mindən çox pakistanlı yaşayır və bu icmanın ABŞ-ın ictimai-siyasi həyatında rolu durmadan artır. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğu artıq uzun illərdir buradakı Pakistan icması ilə sıx münasibətlər saxlayır. 2019-cu ildə Pakistan icmasının ən böyük təşkilatı olan Pakistan Şurası dinlər, icmalar və mədəniyyətlər arasında dialoq, qarşılıqlı anlaşma və əməkdaşlığın təşviqi istiqamətindəki fəaliyyətinə, xüsusilə Los-Ancelesdə ilk dəfə Azərbaycan, Pakistan və türk icmaları arasında üçtərəfli əməkdaşlıq əlaqələrinin qurulması sahəsindəki səylərinə görə ölkəmizin bu şəhərdəki baş konsulu Nəsimi Ağayevi öz ali mükafatı ilə təltif edib.

Baş konsulluq iyulun 21-də Los-Ancelesdə erməni daşnaklarının soydaşlarımıza qarşı törətdiyi vəhşiliklərin yerli ictimaiyyət tərəfindən pislənilməsi üçün səylərini davam etdirir. Pakistan icmasından əvvəl Los-Ancelesdə yerləşən bir sıra nüfuzlu yəhudi təşkilatları, Vyetnam icması, türk və digər icmalar da bu zorakılıqları kəskin şəkildə pisləyiblər.

# Ermənistan yeni sosial-iqtisadi böhran məngənəsindədir

Əvvəli 1-ci səh.

Abadlıq-quruculuq işlərinin, tikintinin həcminin sürətlə azalmasının əsas səbəbi də budur. Çox ağrılı mənzərədir. Amma təəssüf ki, dırnaqarası xüsusi istedadlı insanlar bunu görə bilmirlər. Əgər ölkənin baş naziri bunu dərk etmirsə, deməli o, intellekt baxımından məhv olub".

İqtisadçı Qagik Minasyan jurnalistlərə verdiyi açıqlamasında bildirib ki, bu ilin ilk beş ayı ərzində Ermənistanda ticarət dövriyyəsi 10.8 faiz azalıb. Bu, xüsusilə cəmiyyətin daha az təmin etdiyi qruplar üçün çox çətin və təhlükəli bir göstəricidir. Ölkədə artıq bir çox kiçik və orta müəssisələrin bağlandığını bildirən iqtisadçı bu tendensiyanın böyük biznesə də sirayət etdiyini gizlətməyib. O, ölkə iqtisadiyyatında baş verən tənəzzülü COVID-19-un mənfi nəticələrinə qarşı mübarizədə Paşinyan hökumətinin səriştəsizliyi ilə əlaqələndirib.

Minasyanın sözlərinə görə, müxtəlif sosial qruplar arasında ölkəyə ianə edilən yardımlar bərabər paylanmadığı üçün siyasi rəhbərliyin verdiyi dəstək də kifayət etməyib. Məhz buna görə də ölkədə tənəzzül daha da dərinləşib və 6 ay ərzində bu sahədə 11,1 faiz azalma qeydə alınıb.

Ermənistanın "4rd.am" saytı da postpandemiya dövründə ölkəni gözləyəcək hadisələrlə bağlı bədbin proqnozlar verir: "2020-ci ilin sonrakı dövrü üçün Ermənistanın iqtisadi vəziyyəti ehtimal ki, xammalın gözlənilən qiymət enmələri ilə bağlı olacaq. Hər şeydən əvvəl əlvan metallar, o cümlədən qızılın qiyməti ilə. Mümkündür ki, spirtli və başqa içkilər bazarında problemlər yaransın. Cari ildə investisiyaların həcminin kritik həddə qədər düşməsi də gələn ilə təsir etməyə bilməz. Rusiyadan iqtisadi asılılığının güclənməsi də son dərəcə neqativ amildir. Ehtimal ki, fərdi pul köçürmələri azalacaq və bu xüsusilə Ermənistanda hiss olunacaq. Diasporda təmsil olunan sahibkarların Ermənistana inamını qaytarmaq, investisiyalar üçün daha əlverişli şərtlər təklif etmək üçün cəhd göstərmək olar. Amma hakimiyyət, həmçinin möhkəmlənmiş ticarət qrupları bunda maraqlı deyil".

İqtisadi böhran fonunda ölkə rəhbərliyindən narazılıq artmaqdadır. Lakin müxalifətin bundan hansı istiqamətdə yararlanacağı da hələ qaranlıq olaraq qalmaqdadır. Erməni siyasi eksperti Armen Badalyan qeyd edir ki, hazırda ermənilərin sosial-iqtisadi vəziyyətinin pisləşməsi Paşinyanın və eyni zamanda onun rəhbərlik etdiyi hökumətin reytinqinə mənfi təsir göstərməkdədir. Amma buna baxmayaraq, ölkə müxalifəti lazım olan aktiv strategiyasını hələ ki, nümayiş etdirməyib.

Xatırladaq ki, bir neçə gün bundan əvvəl sabiq prezident Robert Koçaryan ölkə iqtisadiyyatında baş verən tənəzzülün Ermənistanda daxili siyasi vəziyyətin gözlənilməz hadisələrə gətirib çıxara biləcəyini bildirmişdi. Qeyd edib ki, ölkədə kəskin siyasi dəyişikliklərin mümkün olub-olmadığı sualına cavab vermək hələ ki çətin olsa da, amma unutmaq lazım deyil ki, 2018-ci ilin mart ayının sonunda da adi bir müxalifət nümayəndəsinin baş nazir olacağı elə də inandırıcı görünmürdü. Lakin bu baş verdi.

Koçaryan koronavirus fonunda artan işsizliyin, bağlanan kiçik və orta biznesin, "ölü" turizm sənayesinin və s. ölkədə sosial-iqtisadi vəziyyətin pisləşəcəyinə təkan verəcəyini bildirib. Vurğulayıb ki, bu gün hər şey müxalifətin bu narazılığa nə dərəcədə reaksiya verməsindən, əslində, onu canlandıracağından asılıdır.

Bunların fonunda o da qeyd olunur ki, Ermənistanın gələcəyi ilə bağlı proqnozlar da artıq öz mahiyyətini itirib. Bildirilir ki, Paşinyanın başı hakimiyyətini möhkəmləndirməyə qarışdığından Yerevanın istər iqtisadi, istərsə də siyasi fəaliyyətində heç bir dəyişiklik olmayacaq.

Ümumiyyətlə, ekspertlər qarşıdakı dövrün Ermənistanın siyasi və iqtisadi həyatına fəlakət gətirəcəyini bildirir və ölkədə böhranın dərinləşəcəyini qaçılmaz hesab edirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Beynəlxalq aləm

## Dünyada hər 15 saniyədə bir COVID-19 xəstəsi ölür



Dünyada koronavirus pandemiyasından ölənlərin sayı 700 mini keçmişdir. Bu barədə "Pöyter" Agentliyi xəbər verir.

Agentlik qeyd edir ki, hər gün təxminən 5900 nəfər ölür, yəni orta hesabla hər 15 saniyədə bir COVID-19 xəstəsi vəfat edir. Ölüm hallarının çoxu ABŞ, Braziliya, Hindistan və Meksikada qeydə alınmışdır.

Koronavirus pandemiyası başlayandan bəri dünyada 18,7 milyon nəfər COVID-19-a yoluxmuş təqribən 12 milyon nəfər sağalmışdır. Hazırda 6 milyon xəstənin müalicəsi davam edir.

## Beyrut fəlakət zonası elan olundu



Livanın paytaxtı Beyrutda srağagün baş vermiş partlayış zamanı azı 100 nəfər həlak olmuşdur. Yerli hakimiyyət orqanları ölənlərin sayının artacağını istisna etmirlər. Hadisə zamanı 4 min nəfərdən çox adamın yaralandığı bildirilir.

Ölkənin Baş Naziri Həsən Diabın dediyinə görə, altı ildir ehtiyat tədbirləri görülmədən şəhərin dəniz limanının anbarında saxlanılan 2750 ton ammonium selitrası (ammonium-nitrat) alışmışdır. Bununla belə, partlayışın dəqiq səbəbi hələ məlum deyil.

Partlayış nəticəsində şəhər ərazisinin yarısı ziyan çəkmişdir. 300 min beyrutlu evsiz qalmışdır. Partlayışın vurduğu zərər azı 3 milyard ABŞ dollarıdır. Potsdamdakı (Almaniya) Geofizika Tədqiqat Mərkəzinin verdiyi məlumata görə, partlayışın gücü 3,5 ballıq zəlzələyə bərabərdir. Partlayışın səsi Kiprin paytaxtı Nikosiyada (Beyrutdan 240 kilometr uzaqdır) eşidilmişdir.

Beyrut fəlakət zonası elan olunmuşdur. Hökumət partlayışın fəsadlarının aradan qaldırılmasına kömək üçün dost ölkələrə müraciət etmişdir.

## Dünyada 700 milyon nəfər su çatışmazlığından əziyyət çəkir



Dünyanın 43 ölkəsində təxminən 700 milyon sakin su çatışmazlığından əziyyət çəkir. Hər il ən azı bir ay su çatışmazlığı qeydə alınan regionlarda 2,7 milyard nəfər yaşayır.

Dünya Vəhşi Təbiət Fondunun məlumatına görə, şirin su dünyanın su ehtiyatının yalnız 2,5 faizini təşkil edir, içməli suyun 70 faizi buzlaqlardadır. Ümumdünya Səhiyyə Təşkilatı bildirmişdir ki, bu gün 785 milyon nəfərin içməli suya çıxışı yoxdur, 144 milyon nəfər təmizlənməmiş su istehlak edir. Dünyada azı iki milyard nəfər çirkab su ilə qarışıq içməli sudan istifadə edir ki, bu da vəba, ishal, yatalaq və poliomiyelit kimi xəstəliklərin yayılması təhlükəsi yaradır.

BMT-nin məlumatına görə, dünyada su istehlakı altı dəfə artmışdır və bu rəqəm artmaqda davam edir. Təşkilatın mütəxəssislərinin proqnozlarına görə, 2050-ci ildə bəşəriyyətin 40 faizi içməli su qıtlığı stresi altında yaşayacaq.

## Belarus Rusiyadan neft idxalını azaldacaq



Belarus bu ay Rusiyadan neft idxalının həcmini 1,21 milyon tona qədər azaldacaq. Bu barədə "Belneftexim" Konserninin nümayəndəsi Aleksandr Tişşenko məlumat vermişdir.

Tişşenkonun dediyinə görə, cari ayda ölkənin neftə tələbatı 1,37 milyon ton səviyyəsində müəyyən edilmişdir. Belarus Rusiyadan alınan 1,21 milyon tondan yuxarı nefti Azərbaycan və ABŞ-dan idxal edəcək. Bu iki ölkədən 160 min ton neft tədarük etmək planlaşdırılır.

Bu arada Prezident Aleksandr Lukaşenko bəyan etmişdir ki, Belarus 2025-ci ildən sonra yanacaq mənbələrini şaxələndirəcək. Hazırda Belarus xam nefti Rusiyadan əlavə, Azərbaycan, Norveç, ABŞ və Səudiyyə Ərəbistanından alır. Əvvəllər Rusiya Belarus üçün yeganə neft təchizatçısı idi.

## "SpaceX" Ay gəmisini sınaqdan çıxardı



ABŞ-ın "SpaceX" şirkətinin hazırladığı "Starship SN5" Ay-Mars kosmik gəmisinin beşinci sınaq prototipi havaya qalxmışdır. Müvafiq video "YouTube"da yerləşdirilmişdir.

"Ars Technica" nəşri qeyd edir ki, bir ədəd "Raptor" mühərriki ilə təchiz edilmiş 30 metrlik gəmi 150 metr yüksəkliyə qalxmış və yanı üstə manevr edəndən sonra uğurla yerə enmişdir. "Starship SN5"in uçuşunun fərqli rakursdan çəkilmiş videosu "SpaceX" tərəfindən "Twitter"də yerləşdirilmişdir. Elə həmin videoçarxda "Raptor"un prototipin içərisində necə işlədiyi nümayiş etdirilmişdir.


Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC Bakı şəhərində yerləşən 10 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işləri layihəsi üzrə

**açıq tender elan edir**

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | Bakı şəhərində yerləşən 10 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işləri |

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

LOT 1 200 manat

məbləğində pul vəsaitini "ASAN ödəniş" sistemi ilə Bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bank: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**

**İştirak haqqı lot üzrə ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir);*
- *tikinti işlərinin aparılması üçün müvafiq lisenziyanın olması.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istina olmaqla) 26 avqust 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 03 sentyabr 2020-ci il saat 12:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təklfər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 04 sentyabr 2020-ci il saat 11:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Quliyev Zülfiqar - Tender Komissiyasının üzvü,
(tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

*Tender komissiyası*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC Sumqayıt Kimya və Pirallahı Sənaye parklarında geodeziya və topoqrafiya işlərinin satın alınması üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Kotirovka sorğusunda iştirak etmək üçün müraciət;
- İddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri;
- İddiaçının yalnız geodeziya və topoqrafiya sahələri üzrə fəaliyyəti barədə təsdiq edilmiş məlumat;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanına təqdim edilmiş maliyyə hesabatının surəti;
- Maliyyə imkanlarının, habelə ödəmə qabiliyyətinin olması barədə məlumat;
- İddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İşçi heyəti haqqında, o cümlədən, geodeziya və topoqrafiya ixtisası üzrə 4 nəfər ali təhsilli işçinin olması barədə məlumat, onların ixtisasını təsdiq edən sertifikat, diplom və digər təsdiqedici sənədlərin surəti;
- İddiaçının işçilərinin müvafiq sahə üzrə minimum 2 (iki) il iş təcrübəsinin olması barədə sənədlərin təsdiq edilmiş surəti;
- İddiaçının ən azı 10 (on) nəfərdən ibarət işçi heyətinin olması barədə təsdiq edilmiş məlumat;
- Satınalma predmeti üzrə təcrübəsi barədə təsdiq edilmiş məlumat;
- Texniki imkanlar barədə məlumat;
- Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 10 avqust 2020-ci il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 avqust 2020-ci il, saat 12:00-da Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ və Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzinin sanitariya-epidemioloji işləri üzrə keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilib. Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 27 iyul 2020-ci il tarixli qərarına əsasən, "Sanitariya Epidemioloji Xidmətlər" MMC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanıb.

***Tender komissiyası***

## "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci il üçün

### *kotirovka sorğusu elan edir*

**Tibbi avadanlıqların cari təmiri**

Kotirovka sorğusunun müraciəti 12.08.2020-ci il saat 11:00 tarixədək qəbul edilir.

Zərflərin açılması: 12.08.2020-ci il saat 13:00

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**

**Telefon nömrəsi: +994555004599 ;+994552041520**

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ

## "AZƏRBAYCAN"

***qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*6 aylığ*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylığ*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylığ*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Aydın Hüseynova anası
**QİYMƏT HÜSEYNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səfa Mirzəyev Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Məlahət İbrahimqızı, Ziyad Səmədzadə, Jalə Əliyeva, Rauf Əliyev, Səttar Möhbalıyev, Sevinc Hüseynova, Aqil Məmmədov, İlham Məmmədov, Soltan Məmmədov, Vüqar Bayramov, Arzu Nağıyev və Əziz Ələkbərov Milli Məclisin Hesablayıcı komissiyasının sədri, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Elm və təhsil komitəsinin əməkdaşları komissiya sədri, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Azərbaycan Respublikası Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Ağalar Vəliyev Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Ağalar Vəliyev Dövlət Miqrasiya Xidmətinin sabiq rəisi, general-leytenant
**FİRUDİN NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Dövlət Miqrasiya Xidmətinin sabiq rəisi, general-leytenant
**FİRUDİN NƏBİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərova atası, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağdamdan Vaqif Həsənov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Tahir Mirkişili, Əli Məsimli, Mahir Abbaszadə, Elnur Allahverdiyev, Vüqar Bayramov, Məzahir Əfəndiyev, Vahid Əhmədov, İmamverdi İsmayılov, Rüfət Quliyev, Anar Məmmədov, İqbal Məmmədov, Məşhur Məmmədov, Ziyad Səmədzadə və Ağalar Vəliyev komitənin üzvü Aydın Hüseynova anası
**QİYMƏT XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Dövlət Miqrasiya Xidmətinin sabiq rəisi
**FİRUDİN NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Hüseynova anası
**QİYMƏT HÜSEYNOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev İqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev İqtisadiyyat Nazirliyinin əməkdaşı Xaliq İsgəndərova qardaşı
**QALİB İSGƏNDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və universitetin kollektivi Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərova atası, Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri Mədət Quliyev Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Abel Məhərrəmov Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Dövlət Miqrasiya Xidmətinin sabiq rəisi
**FİRUDİN NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ənvər Seyidov ailəsi ilə birlikdə Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, parlamentin Hesablayıcı Komissiyasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-dən Zakir Quliyev
**FİRUDİN NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Göyçaydan Mehdi Səlimzadə Milli Məclisin deputatı Qüdrət Həsənquliyevə əzizi
**BƏHRUZ KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azər Rəsulov ailəsi ilə birlikdə Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Göygöl rayonundan Arif Seyidov Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi İqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mərkəzi Bankın sədri Elman Rüstəmov və bankın kollektivi Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Aydın Hüseynov Milli Məclisin Hesablayıcı komissiyasının sədri, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BMT-nin Qaçqın Agentliyinin Azərbaycandakı Nümayəndəliyinin kollektivi Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin sabiq rəisi
**FİRUDİN NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Ağsaqqallar Şurasının üzvü, Respublikanın Əməkdar memarı Elbay Qasımzadə Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru Qəzənfər Əhmədov və agentliyin kollektivi Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Dilavər, Rafiq və Natiq Mehdiyev qardaşları Kəmaləddin Heydərova atası
**FƏTTAH MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rövşən Aslanov ailəsi ilə birlikdə Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ak.U.Musabəyli adına Sumqayıt şəhər Oftalmoloji Xəstəxanasının baş həkimi İradə Əliyeva Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanov Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, parlamentin Hesablayıcı komissiyasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Hesablama Palatasının rəhbərliyi və palatanın kollektivi Milli Məclisin deputatı və parlamentin Hesablayıcı Komissiyasının sədri, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Nəsimi Rayon Ağsaqqallar Şurası Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi və kollektivi Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Milli Məclisinin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tural Müseyibov Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərova atası, Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov və metropoliten kollektivi Milli Məclisin deputatı, parlamentin Hesablayıcı komissiyasının sədri, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İsa Qaraşov
**FƏTTAH SƏMƏD OĞLU HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov Azərbaycan Respublikası Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, professor Nəsib Quliyev və institutun əməkdaşları iş yoldaşları Sabir Novruzova atası
**MƏSİM MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhəri 1 nömrəli orta məktəbin 1978-ci il buraxılışının məzunları sinif yoldaşları Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, parlamentin Hesablayıcı komissiyasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və Respublika Ağsaqqallar Şurasının üzvlərinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Dövlət Miqrasiya Xidmətinin sabiq rəisi, general-leytenant
**FİRUDİN NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərova atası, Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, parlamentin Hesablayıcı Komissiyasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yaşar və Rəna Əliyevlər Kəmaləddin və Ruhəngiz Heydərovlara əzizləri, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmira Süleymanova Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran ailəsi ilə birlikdə Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvləri Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Kamil və İlqar Məmmədovlar Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycandakı Dağ Yəhudiləri icmasının rəhbəri Melix Yevdayev Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Səbail rayonundan Vüqar Zeynalov Milli Məclisin deputatı, Parlamentin Hesablayıcı Komissiyasının sədri, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Cəlilabaddan Namiq Zeynalov Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Çingiz və Feyruz Məmmədov qardaşları Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əliağa Hüseynov, Ziya Məmmədov, Elton Məmmədov, Mirkazım Kazımov Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərova atası
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əliağa və Rahim Hüseynovlar Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tərtərdən Müstəqim Məmmədov Azərbaycan Respublikası Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, parlamentin Hesablayıcı komissiyasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtərdən Müstəqim Məmmədov Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı
**RƏNA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qusardan Şair Alxasov Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova atası, Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, parlamentin Hesablayıcı komissiyasının sədri
**FƏTTAH HEYDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7233
Sifariş 1828
Qiyməti 40 qəpik